İxtisas : Xarici dil müəllimliyi Təhsildə sosial psixoloji xidmət
Kafedra : Psixologiya pedaqogika və sosial fənlər
Fənn : Pedaqogika 2
Müəllim : Kazımova Şəfa
Mühazirə

Mövzu 1. **Tərbiyənin mahiyyəti və məzmunu**

Plan:

1. Tərbiyənin mahiyyəti və hərəkətverici qüvvələri
2. Tərbiyənin xüsussiyyətlər
3. Tərbiyənin məzmunu

Pedaqogika kursunun bölmələrindən biri də tərbiyə nəzəriyyəsidir. Bu hissədə tərbiyə prosesinin mahiyyəti, məzmunu, metodları və təşkili məsələləri öyrənilir. Bu nəzəriyyənin əsas məsələsi geniş dünyagörüşlü və humanist ruhlu insanlar yetişdirməkdir.

Tərbiyə məna etibarilə öz kökünü «tərbiyə etmək» sözündən götürmüşdür. O, mahiyyət etibarilə anadan olan zaman həyata uyğunlaşmamış və tamamilə köməksiz uşağı yedirtmək, bəsləmək, böyütmək sözündən irəli gəlmişdir. Bu sözdə təkcə yedirtmək, bəsləmək, böyütmək deyil, tərbiyə etmək mənası da vardır. Hətta kiçikdən tutmuş iri heyvanlara qədər bütün canlılar balalarını yedirtməklə yanaşı, onları öyrədirlər: məsələn, ayı onu eşitməyən balasını şapalaqlayır, quş balasına uçmağı, qartal balasına ov etməyi və s. öyrədir. «Tərbiyə» sözü artıq öz mahiyyətini genişləndirərək yeni məna almışdır. İndi tərbiyə haqqında danışarkən artıq «yedirtməyi» düşünmürük. Əslində «yedirtmək» özü sözün geniş mənasında mənəvi yedirtmək, yəni tərbiyə etmək deməkdir. «Pedaqoq» sözü də öz mənasını kökündən dəyişmişdir. Yunanca «uşağı məktəbə aparan qul» sonradan «uşağı həyata addım atdıran» kimi yeni məna kəsb etmişdir. Pedaqogikada «tərbiyə» anlayışını ehtiva edən çoxlu sözlər vardır. Bunlara misal olaraq ərsəyə çatma, formalaşma məfhumlarını göstərmək olar.

«Ərsəyə çatma» dedikdə uşağın sərbəst yaşamaq, öz taleyi haqda düşünməyi bacarmaq və davranışını sərbəst olaraq qaydaya salmaq, dünyaya münasibətdə

müstəqil dərketmə qabiliyyətinə yiyələnmək səviyyəsinə çatmaq mənası başa düşülür. Uşağın ərsəyə çatmasını dünyanın bəzi yerlərində müxtəlif üsullarla müəyyən etmişlər. Məsələn, vaxtilə hindular belə bir sınaq keçirirdilər. Oğlan uşağını tor yelləncəyə salır, ora dalayan və dişləyən böcəklər buraxarmışlar. Oğlan tərpənmədən, sakitcəsinə böcəklərin hərəkətlərinə dözərmişsə, bundan sonra onu qəbilənin tam hüquqlu üzvü hesab edirmişlər. Qərbi Avropada protestantlar və katoliklər 16 yaşlı cavan oğlan və qızları kilsə üzvlüyünə qəbul etmək məqsədilə buna oxşar ağır sınaqlardan keçirərmişlər.
Özünütərbiyə şəxsiyyətin müəyyən inkişaf mərhələsində meydana çıxır və tədricən sürətlənir. Özünütərbiyə əsasən yeniyetməlik yaşında özünü təzahür etdirir. Düzdür, özünütərbiyə ünsürləri bu yaşlar üçün xarakterik olmasa da, böyük bağça və kiçik məktəbyaşı dövründə də təzahür edir. Yeniyetmə öz üzərində işləməklə, ilk növbədə davranışında nöqsanları aradan qaldırmağa çalışır, müsbət keyfiyyətləri inkişaf etdirməyə səy göstərir. Yaşın artması özünütərbiyənin məqsədinə də yeni məna verir. İnsanı özünütərbiyəyə təhrik edən səbəblər-motivlər vardır. Belə ki, yoldaşlarının, yaxınlarının hörmətini qazanmaq, maddi həvəslənmə, mənəvi tələbat, çətinliyi aradan qaldırmaq meyli, ətrafdakılardan fərqlənmək, nümunəvi olmaq özünütərbiyənin motivləridir. Özünütərbiyənin xarici və daxili motivləri vardır. Nümunəvi olmaq, cəmiyyətin əxlaqi tələblərinin daşıyıcısı kimi yetişmək, işinə tənqidi yanaşmaq və s. xarici motivlərdir. Özünütərbiyənin daxili motivi maddi və mənəvi tələbatlardan irəli gəlir. «Yenidəntərbiyə» uzaq keçmişin, uşağın hələ pedaqoqun təsir obyekti olduğu zamanın məfhumudur. Belə nəzərdə tutulurdu ki, mənfi cəhətləri «kəsib atmaq», «məhv etmək», hətta «tələf etmək», «əzmək» müsbət cəhətləri isə tələf edilənlərin yerinə qoymaq lazımdır. Əgər uşağı maqnitofona bənzətmiş olsaq, deməli, müəllim yaxşı, təmiz, kaseti qoyub, o biri, yəni yaramaz şeylər yazılan kaseti kənara atmalıdır.

Tərbiyə şəxsiyyətin formalaşmasını həyata keçirən fəaliyyət sahələrindən biridir. Görkəmli pedaqoq A.S.Makarenko göstərirdi: «Tərbiyənin mahiyyəti ondan ibarətdir ki, daha yaşlı nəsil özünün təcrübəsini, özünün ehtiraslarını, özünün inamını böyüyən nəslə verir». Yenidəntərbiyənin əsas şərtləri yeni, düzgün münasibətlər sisteminin yaradılmasından, kollektivin tərbiyəvi rolunun gücləndirilməsindən, stimullaşdırıcı tərbiyə metodlarının tətbiqindən ibarətdir. Müasir pedaqoji tərbiyə uşağa həm obyekt, həm də subyekt kimi yanaşır.

Tərbiyə sosial hadisələrə aiddir. Cəmiyyətin həyatının və inkişafının mühüm amillərindən birinin rolunda çıxış edir. Sosial baxımdan tərbiyə cəmiyyət tərəfindən nəzarət edilən dövlət və ictimai strukturlar vasitəsilə gənc nəsli indiki həyata və

gələcək cəmiyyətdə fəaliyyətə məqsədyönlü hazırlamaq deməkdir.

Bildiyimiz kimi, tərbiyə mürəkkəb və uzunsürən prosesdir. Onun çətinlikləri və hətta baş tutmayan halları da olur. Tərbiyə prosesində məqsədə nail olub-olmamağı necə bilmək olar? Belə halda planlaşdırılanlarla tərbiyənin real nəticələrini müqayisə etmək lazımdır. Əldə edilmiş son nəticələri bilmədən nə planlaşdırmaq, nə də prosesi idarə etmək qeyri-mümkündür. Tərbiyə prosesinin nəticələri dedikdə biz şəxsiyyətin və ya kollektivin tərbiyəliliyinin (*ədəbliliyinin*) səviyyəsini nəzərdə tuturuq. O, planlaşdırmaya uyğun və ya ondan fərqli də ola bilər. Tərbiyənin və ya tərbiyəliliyin səviyyəsini təyin etməyə diaqnostika deyilir. Tərbiyəlilik necə müəyyən olunur? Bu, müasir pedaqogikada çox mürəkkəb və tam həll olunmayan problemdir. Hazırda elm tərbiyənin nəticələrini müəyyən etməyə imkan verən «ölçülərin» hazırlanmasına ancaq yaxınlaşa bilir. İndi tərbiyənin nəticələrini, səviyyəsini təqribən müəyyən etmək üçün onun mürəkkəb və zəhmət tələb edən tədbirlərindən istifadə etmək lazımdır.

Tərbiyəliliyin kriteriyası şəxsiyyətin və ya kollektivin müxtəlif keyfiyyətlərinin (*dəyərlərinin*) formalaşma səviyyəsi göstəricisinin nəzəri cəhətdən hazırlanmasıdır. Bunu müəyyən etmək üçün xüsusi cədvəllər düzəldilir və ya testlərdən istifadə edilir.

Tərbiyəliliyin kriteriyasını şərti olaraq «sərt» və «yumşaq» hadisələrə bölmək olar. «Sərt» kriteriyadan (*meyardan*) pedaqogikada müqayisədə az istifadə edilir. Son zamanlar bu kriteriyalardan cəmiyyətdə neqativ halları öyrənmək, təhlil etmək, qarşısını almaq üçün istifadə olunur. Bunlara gənclərin tərbiyəlilik səviyyəsini səciyyələndirən faktlar: hüquq pozuntularının sayı və onların dəyişməsi; cinayət etdiyinə görə öz cəzasını çəkib qurtaran gənclərin sayı; dağılan ailələrin sayı; atılmış uşaqların sayı; gənclər arasında sərxoşluğun, papiros çəkməyin, narkomaniyanın yayılmasının sürəti və b. daxildir.

Tərbiyənin texnologiyası. Nəzəriyyə praktikada texnologiyanın köməyi ilə həyata keçirilir. XX əsrin 50-ci illərində «pedaqoji texnologiya» termini ABŞ-da yaranıb, sürətlə bütün inkişaf etmiş ölkələrin lüğətinə daxil olub. Pedaqoji texnologiyalar haqqında ilk fikri ötən əsrin 30-cu illərində A.S.Makarenko söyləmiş və onun bəzi xüsusiyyətlərini göstərmişdir. Odur ki, keçmiş sovet pedaqogikasında bu elmin texnologiya ilə əlaqəsi ilk növbədə görkəmli pedaqoq A.S.Makarenkonun adı ilə bağlıdır. Texnologiya materiyanın, enerjinin, informasiyanın planlı, sistemli, ardıcıl formada insanın meyl və marağına uyğun

istiqamətlənməsindən, istifadəsindən bəhs edən bir elmdir. Texnologiya latınca texne-sənət, peşə, bacarıq, ***loqos*** isə elm deməkdir. ***Tərbiyənin kompüter dayağı (köməyi).*** Tərbiyənin kompüter diaqnostikası siniflə məqsədyönlü iş diaqnostikləşmədən başlayır. Tərbiyənin diaqnozlaşdırılması sinif rəhbərinin ümumi sinif kollektivi və hər bir tərbiyə olunanların tərbiyəliliyi barədə məlumat toplaması deməkdir. Tərbiyənin diaqnozlaşdırılmasının başlıca vəzifəsi şagirdlərin mənəvi və sosial keyfiyyətlərinin real vəziyyətini müəyyən etməkdir.

«Mənalı yaşanmış hər bir ömür – uzun ömürdür».

Leonardo da Vinçi

«Fəaliyyətsizlik – ağzı bağlı qabda saxlanılan zəhərdir».

Gertsen

«Həya və iman bir beşikdə iki körpə kimidir».

Məhəmməd peyğəmbər (s.)

«Ən yaxşı sədəqə odur ki, sağ əlin verdiyini sol əl bilməsin».

Məhəmməd peyğəmbər (s.)

Ədəbiyyat

1. Pedaqogikanın əsasları Bakı-2005. – Məcid İsmixanov
2. Pedaqogika "Maarif", Bakı-1996. – N.Kazımov, Ə.Həşimov
3 Pedaqogika "Maarif", Bakı-2006- A.Eminov, İ.İsayev
4. Pedaqogika "Renesans" Bakı -2000- A.Abbasov, H.Əlizadə

Mövzu 2 Tərbiyənin qanunayğunluqları və prinsipləri

Plan:

- Tərbiyənin qanunauyğunluqları
- Tərbiyə prosesinin prinsipləri, onların təsnifatı
- Tərbiyə prinsiplərinin səciyyəsi və qarşılıqlı əlaqəsi

Tərbiyə prosesinin ümumi qanunauyğunluqları demək olar ki, bütün tərbiyə sisteminə aid edilir. Uşağın tərbiyə edilməsini əsaslandıran qanunauyğunluqlardan danışmaq tərbiyə prosesinin elmi mənzərəsini yaratmaq deməkdir. Ümumi, möhkəm (*səbatlı*) xüsusiyyətlərə malik olan tərbiyə prosesinin qanunauyğunluqları konkret şəraitlərdə obyektiv, yəni subyektin iradəsindən asılı olmayan gerçəkliyi tam uyğun şəkildə əks etdirir.

Qanunauyğunluğu müəyyən etmək pedaqoji fəaliyyətin ideal planını aşkar etmək, tərbiyə praktikasının ümumi nizamlayıcısını üzə çıxarmaq deməkdir. Qanunauyğunluqlara etinasızlıq göstərmək pedaqoqun peşə fəaliyyətinin səmərəliliyinə etinasızlıq deməkdir.

Qanunauyğunluqların aydın dərk olunması məqsədə nail olmağa doğru yol açır, adamı çoxlu səylərdən azad edir, peşə fəaliyyətini asanlaşdırır. Bu qanunauyğunluqlar obyektiv proseslərin çoxmənalılığına əsaslanırlar. Buna görə də burada həmin prosesləri dəqiqləşdirmək son dərəcə çətin məsələdir. Tərbiyədəki fərdiləşmə və konkretlilik də ümumiləşmə aparmağa imkan verir. Bəziləri bunları nəzərə alaraq qanunauyğunluqların ancaq sosial etikaya və fəlsəfəyə məxsus olduğunu iddia edirlər.

Birinci qanunauyğunluq. Uşağı tərbiyə etmək, onda sosial-psixoloji yeniliklər formalaşdırmaq, onun özünün fəallığı ilə baş verir. Bu zaman onun səyləri imkanlarına müvafiq olmalıdır. Onu da qeyd edək ki, uşaq fiziki və mənəvi cəhətdən inkişaf etdikcə onun səylərinin dərəcəsi də artır. Bu nöqteyi-nəzərdən tərbiyə prosesi yeni və böyük səylər tələb edən, daim yüksələn fasiləsiz hərəkətdir. Maraqlıdır ki, bu qanunauyğunluqdan uşaqlar özləri də xəbərdardırlar. Onlar «ciddi» müəllimləri sevir, müəllimləri onlara qarşı tələbkar olmağa məcbur edirlər. Müəllimin tərbiyə olunan uşaqların vəziyyətinə daim nəzarət etməsi bu

qanunauyğunluğun həlledici cəhətidir. Müəllim uşağın əvəzinə heç bir iş görməməlidir.

İkinci qanunauyğunluq. *Uşağın fəaliyyətinin məzmunu tərbiyə prosesində onların daim dəyişən zəruri tələbləri ilə müəyyən olunur.* Müəllim bunlara nəzarət etməyi unutmamalıdır. Bu qanunauyğunluğa görə yaxşı müəllim elə şəxsdir ki, o, böyüməkdə olan uşaqda nələr baş verdiyini, həyatının hansı çağında onun üçün nəyin əsas olduğunu görməyi bacarır, böyüməkdən irəli gələn tələbləri ödəməyə çalışır. İkinci qanunauyğunluğun nəticəsi kimi belə bir müddəa meydana gəlir: uşaqların maraqlarına uyğun olaraq qarşılıqlı hərəkət üçün onlara yeni fəaliyyət və obyekt verilərkən tərbiyə olunanın yeni tələb və maraqları nəzərə alınmalıdır.
Üçüncü qanunauyğunluq. *Təbiətən şəxsiyyətin öz-özlüyündə fəaliyyətə hazır olmamasıdır*. O, təbiətən müstəqil həyat üçün nə bacarıqlara, nə də müvafiq vərdişlərə malik deyildir (*toyuq, cücə, balıq balası kimi*). Deməli, uşağı həyata, fəaliyyətə hazırlamaq lazımdır. Bu problem birgə fəaliyyət əsasında həll oluna bilər. Birgə fəaliyyət zamanı uşağın və müəllimin səylərinin mütənasibliyini gözləmək vacibdir. Belə ki, həyatda fəaliyyətin başlanğıcında tərbiyəçinin fəallığı uşağınkından üstünlük təşkil edir. Demək, şagird ünsiyyət və fəaliyyət prosesində formalaşır. ***Dördüncü qanunauyğunluq****. Ən əlverişli şəraitdə şəxsiyyətin səmərəli inkişafı üçün həlledici cəhət uşağın fəaliyyət obyektlərinə dəyərli münasibətlərini müəyyən edən daxili vəziyyətidir*. Uşaq ancaq səmimiyyət və havadarlıq şəraitində çəkinmədən öz münasibətlərini azad və sərbəst ifadə edir. Ona görə də tərbiyənin məzmununa uşağa səmimiyyətlə yanaşmaq da daxildir. Belə olduqda onun müəllimə münasibəti dəyişir, müəllimlə qarşılıqlı rəğbətdə olur. Müəllim təkcə uşağa deyil, onun olduğu qrupa səmimiyyət və rəğbətlə yanaşmalı, bütövlükdə qrup uşaqlarını «sevməyin» qayğısına qalmalıdır. Bu qanunauyğunluğun pedaqoji müddəası ondan ibarətdir ki, «uşağın pozitiv və yaxud neqativ hərəkətlər etməsinə baxmayaraq, onlara zahirən hörmətlə, xeyirxahlıqla və sevgi ilə yanaşılmalıdır».
Beşinci qanunauyğunluq. *Uşağın inkişaf etməkdə olan özünüidarəçiliyi və psixoloji asılılıqdan xilas olması tərbiyəyə «gizli xarakter» adlanan təyinat verir.* Şəxsiyyətin sosiallaşması, onun mənəvi zənginləşməsi və müasir cəmiyyətin mədəni həyatına hazırlanması naminə planlaşdırılan məqsədyönlü təsir hələ pedaqoji peşənin sahəsi olaraq qalmaqdadır. Uşaqlar peşəkar qüvvələrin tətbiqetmə obyekti olmamalı və onu hiss etməməlidirlər. Uşaq daim tərbiyə təsirində olduğunu hiss etməməlidir. Tərbiyə niyyətini «açmaq» uşağı obyekt mövqeyinə qoymaqdır.

Vaxtilə bu, rus pedaqoqu A.S.Makarenko tərəfindən də qeyd edilmişdi. Prinsip müxtəlif şərait və vəziyyətdə hərəkətlərin ardıcıllığını tələb edən ümumi rəhbərlik qaydasıdır. O, «keçici» deyil, daimilik tələb edir. Prinsipin ümumi xarakteri onu hər yerdə, həmişə əldə rəhbər tutmağa, kobud səhvə yol vermədən işin taktikasını peşəkarcasına düzgün müəyyənləşdirməyə imkan verir. Bəzən tərbiyə prinsiplərini əldə rəhbər tutarkən subyektivliyə də yol verilir. Məsələn, bəzən müəllim belə qənaətə gəlir ki, uşaqları qorxutmaqla işə cəlb etmək lazımdır. çünki ancaq qorxu yolu ilə qayda-qanun yaratmaq, bilikləri mənimsətmək olar. Lakin tezliklə səhvini başa düşür. Başa düşür ki, uşaqları qorxutmaqla deyil, başa salmaqla, inandırmaqla işə cəlb etmək olar. Prinsip tərbiyənin məqsədindən, təbiətindən yaranan qaydadır. Prinsip müəllimin məqsədə müvafiq olaraq nə isə planlaşdırdığını (*«nə istəyirəm»?*) və sosial psixoloji mühitdə nəyə nail olacağının mümkünlüyünü (*«nə edə bilərəm?»*) təyin edir. Prinsip nəzəriyyədən təcrübəyə körpü rolunu oynayır. Onun həyata keçirilməsi nəzəri əsasların ifadəsidir. Buradan da dərhal elmi-nəzəri təfəkkürün səviyyəsi müəyyən olunur. Uşaqlarla işləyən müəllimin tərbiyə prinsiplərini bilməsi vacibdir. Bunlar aşağıdakılardır:

1. Dəyərlərə və dəyərli münasibətlərə yönəltmə prinsipi.
2. Tərbiyədə subyektivlik prinsipi.
3. Tərbiyənin tamlığı (*bütövlüyü*) prinsipi.
4. Tərbiyənin həyatla, əməklə əlaqəsi prinsipi.
5. Tərbiyədə yaş, fərdi və cinsi xüsusiyyətlərin nəzərə alınması prinsipi.
6. Tərbiyədə nikbinlik prinsipi.
7. Tərbiyədə hörmət və tələbkarlıq prinsipi.
8. Tələblərdə vahidlik prinsipi.
9. Tərbiyədə sözlə əməlin vəhdəti prinsipi.
10. Kollektivdə kollektiv üçün, kollektiv vasitəsilə tərbiyə prinsipi.
11. Tərbiyədə sistemlilik və ardıcıllıq prinsip.

Dəyərlərə və dəyərli münasibətlərə yönəltmə prinsipi. Tərbiyənin məqsədindən meydana çıxan və tərbiyə prosesinin təbiətini nəzərə alan birinci prinsip dəyərlərə və dəyərli münasibətlərə yönəldilən prinsipdir.Bu prinsip müəllimin tərbiyə

olunanın sosial-mədəni və mənəvi dəyərlərə (*insana, təbiətə, cəmiyyətə, əməyə, idraka....*), insani ləyaqətlərə münasibətlərinə daim peşəkarcasına diqqəti deməkdir.

Tərbiyədə subyektivlik prinsipi. Bu, tərbiyə prosesinin təbiətindən irəli gələn və tərbiyənin məqsədini nəzərə alan prinsipdir. Bu prinsipə uyğun müəllim digər insanlarla və dünya ilə əlaqələrində uşağın öz «mən»ini dərk etmək qabiliyyətinin inkişafına kömək edir. Həyatın hər anı bizə layiqli adam olmağa şans verir, bizə layiqli, ya da ləyaqətsiz həyat seçmək imkanları yaradır. Biz bu şansdan ya istifadə edir və ya onu özümüzdən uzaqlaşdırırıq. Bunu uşaqlar üçün müəllim seçmir, onları bu seçim üçün öyrədir və öyrətməyə borcludur.

Tərbiyənin həyatla, əməklə əlaqəsi prinsipi. Həyat ən yaxşı tərbiyə məktəbidir. Ona görə də tərbiyənin həyatla əlaqəsi mühüm prinsiplərdən biri sayılır. Gənc nəsli müsbət nümunələr, adət-ənənələr əsasında tərbiyə etmək çox vacib məsələlərdən biridir. Demokratik ruhlu gənclərin tərbiyə olunmasına bu gün böyük ehtiyac vardır. Bunun üçün onların ictimai-siyasi hadisələrlə tanışlığı, həmin hadisələrin həlli yollarının müəyyənləşdirilməsi və ona münasibətin bildirilməsi imkanlarının yaradılması çox mühümdür. Bu imkanlar birdən-birə deyil, müxtəlif yollarla əldə edilir.

Tərbiyədə yaş, fərdi və cinsi xüsusiyyətlərin nəzərə alınması prinsipi. Uşaqlarla aparılan hər hansı bir tərbiyə işində yaş xüsusiyyətlərinin nəzərə alınması çox vacib məsələdir. Fərdi iş, uşaqlara fərdi yanaşma tərbiyənin qarşıya qoyduğu mühüm tələbdir. Müxtəlif ailələrdən müxtəlif keyfiyyətlərlə məktəbə gələn uşaqlara yanaşma tərzi də başqa-başqa olur. Uşaqların yaş, fərdi və psixoloji xüsusiyyətlərini öyrənmədən nəinki tərbiyədə, heç təlim işində də müvəffəqiyyət əldə etmək olmaz. Uşaqlar ildən-ilə böyüdükcə, bir sinifdən digərinə keçdikcə tərbiyənin məzmunu dəyişir və bu istiqamətdə müəllimin onlara yanaşma tərzində müxtəliflik əmələ gəlir. Belə ki, müəllim uşaqların anatomik-fizioloji inkişafını, yaş xüsusiyyətlərini və fərdi fərqlərini nəzərə alaraq tərbiyə işlərinin məzmununu, forma və metodlarını müəyyənləşdirir.

Tərbiyədə nikbinlik prinsipi. Həyatda elə uşaq tapmaq olmaz ki, o ya tamamilə pis və ya tam yaxşıdır. Uşaq xarakterinə uyğun şıltaqlıq, qaynarlıq və ya sökmək, dağıtmaq, qurmaq və s. əlamətlərin mövcudluğu onlar haqda müəyyən fikir yürütmək imkanını verir. Lakin şagirdə mənfi keyfiyyətlərinə görə «intizamsız, «pis

uşaq» adını qoymaq olmaz. çünki bunlar keçici hallardır və bilmək lazımdır ki, bütün şagirdlərdə mənfi hərəkətlər olduğu kimi, müsbət keyfiyyətlər də vardır. Əgər müəllim müsbət keyfiyyətlərin formalaşmasına və inkişafına nail olursa, demək, o, şagirddə müvafiq mənfi keyfiyyəti aradan qaldıra bilmişdir. Nikbinlik prinsipi şagirdlərdə mövcud müsbət və mənfi keyfiyyətlərin dialektikasından irəli gəlir.

Tələblərdə vahidlik prinsipi. Bu prinsip müəllimlərin, ailənin, ictimai təşkilatların əlbir işləməsi və bir-birinə kömək etməsi zərurətindən irəli gəlir. Şagirdin fəaliyyəti o zaman düzgün qurula bilir ki, onu tərbiyə edən şəxslər, təşkilatlar tələblərin vahidliyini gözləsinlər, bir sözlə, hamı vahid tələblə uşağa yanaşsın. Tərbiyə çox mürəkkəb prosesdir. Bu mürəkkəblik uşağa tərbiyəvi təsir göstərən şəxslərin çox olması ilə bağlıdır, həmçinin təsirlərin çoxluğu onu müxtəlifləşdirir. Belə ki, evdə valideynlərin, məktəbdə müəllim, sinif rəhbəri, direktor və dərs hissə müdirinin müxtəlif formalarda təsiri tərbiyəni çətinləşdirir, onu mürəkkəbləşdirir.

Ədəbiyyat

1. Pedaqogikanın əsasları Bakı-2005. – Məcid İsmixanov
2. Pedaqogika “Maarif”, Bakı-1996. – N.Kazımov, Ə.Həşimov

3 Pedaqogika “Maarif”, Bakı-2006- A.Eminov, İ.İsayev

4. Pedaqogika “Renesans” Bakı -2000- A.Abbasov, H.Əlizadə

Mövzu 3. Tərbiyənin metodlarının anlayışı

Plan:

- Tərbiyə metodları anlayışı, onun təsnifatı
- Şüuru formalaşdıran metodlar
- Fəaliyyət və davranışı stimullaşdıran metodlar
- Tərbiyədə nəzarət, özünənəzarət və özününqiymətləndirmə metodları

Pedaqogikanın digər sahələri kimi tərbiyə sahəsinin də özünəməxsus metodları mövcuddur. Onlar uydurulmur, subyektin də yaradıcılığının məhsulu deyildir. Metodun seçilməsi subyektin hansı nəticəni gözləməsindən asılıdır. Müəllim fikrən tərbiyənin nəticələr əldə edilməsi yollarının ilkin şərtlərini yaradır. Qabaqcadan düşünülən tərbiyə metodu ikili xarakter daşıya bilər: «Mən nə istədiyimi və hansı nəticəni alacağımı duyuram, həm də ona necə nail olacağımı da bilirəm».

Tərbiyə metodu müəllimin və uşağın özünə və dünyaya dəyərli münasibət formalaşdırmaq məqsədilə qurulan qarşılıqlı fəaliyyətin təşkili modelidir. Deməli, metod qarşıya qoyulan məqsədin təbiəti dərk edilən prosesdə meydana çıxır. O, fikri təhlilin həyata keçirilməsi prosesində müəyyən olunur. Metodlar sayca məhdud olmamalıdır. Belə ki, onların sayı proqramlaşdırılmış nəticələrə uyğun gəlməlidir.

Müəllimin metodikası onun metodlar sistemi kimi nəticənin dərk olunması ölçüsü ilə müəyyən olunur: məsələn, müəllim hansı nəticəni istəyir, uşaqlara təsir etməyi nə vaxt həyata keçirəcək, yekun nəticəni almaq üçün hansı üsulları planlaşdırır dilemması qarşısında qalır. Tutaq ki, müəllim şagirddə öz ikinci «məni»ni əmələ gətirmək istəyir. Onda metodika: göstərmə-əmr-nəzarət-qiymət şəklində olacaqdır. Zənn edək ki, müəllim uşaqları dinləməyi başlıca cəhət hesab edir. Onda metodika: bilik-tələb-nəzarət-qiymət formasında qurulacaqdır. Bu metodlarda ardıcıllıq, asılılıq, bir-birinə bağlılıq sistemi mövcuddur.

Tərbiyənin metodları haqqında pedaqoqlar maraqlı fikirlər söyləmişlər. Məsələn, yunan filosofu Aristotel əxlaq tərbiyəsində təmrinlərə böyük əhəmiyyət verirdi. Onun fikrincə, xeyirxah olmaq üçün ədalətli və yaxşı işi dərk etmək kifayət deyildir. Bunun üçün ədalət və yaxşılığa aid düşünülmüş təmrinlər və adətlər olmalıdır.

Görkəmli pedaqoq A.S.Makarenko tərbiyə üsulları sırasına – intizam, rejim, cəzalandırma və həvəsləndirməni daxil etmişdi. Makarenko intizam dedikdə şüurlu intizamı nəzərdə tuturdu. O, cəza formalarını aşağıdakı kimi şərh etmişdir: həbs, həzdən məhrum etmək və s.

Tərbiyənin üsulları haqda görkəmli şəxsiyyətlərin və klassik pedaqoqların: M.F.Axundovun, N.Nərimanovun, K.D.Uşinski-nin, V.A.Suxomlinskinin də qiymətli

fikriləri vardır. Bununla bərabər, tərbiyə üsullarının tədqiq edilməsi və ümumiləşdirilməsi sahəsində N.İ.Boldırevin, N.K.Qonçarovun, İ.P.Podlasının, N.Y. Şurkovanın, M.T.Mehdizadənin, Ə.Y. Seyidovun, M.Ə.Muradxanovun, N.Kazımovun, Ə.Həşimovun, Y.D. Talıbovun, B.Əhmədovun, Ə.Ağayevin böyük xidmətləri olmuşdur. Qeyd etmək lazımdır ki, tərbiyənin üsulları 60-cı illərdə nəşr olunmuş «Pedaqogika» tədris vəsaitlərində, monoqrafiyalarda daha geniş işıqlandırılmışdır. 60-cı illərdən başlayaraq tərbiyənin ümumi metodlarından bəhs edilmiş və onun təsnifatı haqqında fikirlər söylənilmişdir. İ.P.Podlası tərbiyənin metodlarını aşağıdakı kimi təsnif edir: 1) şəxsiyyətin şüurunu formalaşdıran metodlar; (*nəql, disput, nümunə, estetik söhbət, aydınlaşdırma və s.*); 2) fəaliyyətin təşkili və davranış təcrübəsini formalaşdıran üsullar (*tapşırıq, alışdırma, tələb və s.*); 3) stimullaşdırıcı üsullar (y*arış, rəğbətləndirmə, cəzalandırma*).

T.A.İlina tərbiyə üsullarını iki qrupa ayırır: 1) əqidəni formalaşdıran üsullar (*nümunə, şifahi şərh, frontal söhbət, mühazirə, disput, müzakirə*); 2) düzgün davranış adəti və vərdişlərinin yaranmasına kömək edən üsullar (*məşqetmə, alışdırma, uşağın hərəkətinə düşünülmüş istiqamət vermək*);

Tərbiyə metodlarının sistemi. Tərbiyə metodlarını izah etməzdən əvvəl bu üslubların tətbiqinin əsasında dayanan psixoloji məqamlara nəzər salaq: Alimlərin böyük bir qismi tərbiyə metodlarının psixoloji əsaslarını aydınlaşdırmağa cəhd göstərmişlər. Onların bəziləri tərbiyədə başlıca və bəlkə də yeganə yolu ağıla verərək tərbiyənin əsas vəzifəsini yaxşı və pis hərəkətlərin mənasını uşaqlara başa salmaqda, yəni nəsihətlər verməkdə görürlər. Digərləri iradəni əsas qəbul edərək uşaqların öz istək və arzularını idarə etməkdə, iradələrini möhkəmləndirməkdə görürlər. Alimlərin üçüncü bir qismi tərbiyədə əsas yeri hisslərin təşəkkülünə, dördüncülər isə adətlərin həyatda oynadığı rolunda axtarırlar.

Tərbiyənin metodlar sisteminin aşkar edilməsinin real təzahürü onun ətraf gerçəkliyə münasibəti təşkil edir. Bu münasibətin qeyd etdiyimiz kimi üç forması vardır: 1) rasional əlaqə. Buna sözlə təsir etmək aiddir; 2) praktik fəaliyyət. Bu uşağın təşkil olunmuş hərəkətindən yaranır; 3) emosional münasibət. Bu, qiymətləndirmənin təsiri şəklində təzahür edir. Göstərilən üç metodik formadan istifadə etmək yolu ilə uşaqlarda ağıl, hissiyyat və hərəkət vərdişlərinin birgə təzahür etməsinə nail olmaq olar.

Bütün bu deyilənləri nəzərə alaraq tərbiyənin metodlarının aşağıdakı kimi qruplaşdırılması məqsədəuyğun sayılır:

1. Şüurun, əqidənin formalaşdırılmasına xidmət edən metodlar. Bu üsula inandırma da deyilir.
2. Fəaliyyətin təşkilinə və davranış təcrübəsinin formalaşdırılmasına xidmət edən metodlar.
3. Fəaliyyət və davranışı stimullaşdıran metodlar.
4. Nümunə.
5. Nəzarət, özünənəzarət və özünüqiymətləndirmə metodu.

Şüurun, əqidənin formalaşdırılmasına xidmət edən metodlar (inandırma). Uşaqların tərbiyəsi məsələsi həmişə diqqət mərkəzində olmuşdur. Onları həyata hazırlamaq, müsbət keyfiyyətlər tərbiyə etmək üçün ağıllarına, şüurlarına təsir göstərmək, pisi yaxşıdan seçməyi öyrətmək lazımdır. Şagirdə hər hansı bir əxlaqi məsələni dərk etdirmək, inandırıb əqidəsinə çevirmək və ona uyğun fəaliyyət göstərməsini təşkil etmək çox vacibdir. İnam əsasında mənəvi əqidənin bünövrəsi qoyulur. Tərbiyə işində inam ən kəsərli silahdır. Onun vasitəsilə uşağın şüuruna və qəlbinə təsir etmək olur. İnam insanı ən ağır günündə özünə, həyata qaytarır, onun ümidi ilə birləşir. İnandırma vasitələrindən biri ***söhbətlərdir***. Tərbiyəvi istiqamətli söhbətlər kollektivə aiddir. Müəllimlər söhbət apararkən şagirdin məsələyə münasibətini nəzərə almalıdır. Çalışmaq lazımdır ki, uşaq həmin məsələ ilə bağlı suallarını versin, öz fikrini bildirsin. Əxlaqi-tərbiyəvi söhbətlər siniflə, qrupla və fərdi şəkildə aparıla bilər. Şagirdlərlə aparılan ***fərdi söhbətlər*** də onların şüurunun formalaşdırılmasında müəyyən rola malikdir. ***Mühakimələr*** də inandırma üsulunda təsirli vasitədir. Müəllimin mühakiməsi şagirdin şüuruna təsir göstərir, öz fəaliyyətində dönüş yaratmağa təhrik edir. Məsələn, «sən yaxşı şagird olsaydın, sinifdən çölə qovulmazdın». Bu fikir təhrik edir ki, şagird pis hərəkətlərin sahibi olduğuna inansın. Bu zaman şagird müəllimin xüsusi vurğu ilə yürütdüyü fikirdən təsirlənib, hərəkətlərinə düzgün yönüm verir. Şüurun formalaşmasında ***məruzə*** və ***mühazirələri Disputlar da*** tərbiyə işinin həyata keçirilməsində əvəzsiz əhəmiyyətə malikdir. Disputun keçirilməsi və təşkili müəyyən qədər çətin olsa da, tərbiyə işində çox böyük təsir imkanına malikdir. O, şagirdlərin dünyagörüşünü formalaşdırır, davranışlarını nizama salır, şüurlu fəaliyyətə təhrik edir. Disputun

keçirilməsinə hazırlaşarkən böyük idraki mübahisə doğuracaq, düşündürəcək, müxtəlif rəylər yarada biləcək mövzuları ön plana çəkmək lazımdır. Çünki bu zaman şagirdlər müəyyən olunmuş məsələyə öz münasibətlərini bildirmək və onun üzərində düşünmək imkanı əldə edə bilirlər. Disput zamanı fikirlər, rəylər toqquşarsa, mübahisə doğuran məsələnin tədricən aydınlaşdırılması lazım gəlir. Disputların da əsasən yuxarı sinif şagirdləri üçün nəzərdə tutulması məqsədəuyğun sayılır. Disputun maraqlı qurulması mövzuların aktuallığından və düzgün seçilməsindən çox asılıdır. Disput üçün: «Qızların oğlanlarla dostluğuna necə baxırsınız?», «Əsl dost kimi hesab etmək olar?», «Sən ideal müəllim anlayışını necə qəbul edirsən?», «Vətəndaş, vətənpərvər və vətən anlayışlarının mahiyyəti nədən ibarətdir» və s. mövzular seçilə bilər.

Şagirdlərin şüuruna təsir edən vasitələrdən biri də bədii əsərlərin müzakirəsidir. Bunun müsbət cəhəti ondan ibarətdir ki, müzakirə olunan tərbiyə məsələləri əsərlərin əsas qəhrəmanlarının nümunəsində və ya onların iştirakı ilə keçirilə bilir. Həmçinin bədii əsərlərin müzakirəsi kitabdakı qəhrəmanların surətlərinin təhlilinə əsaslanır. Əsərdə müsbət və mənfi surətlər qruplaşdırılır və onlara münasibət bildirilir. Bədii əsərlərin müzakirəsi disputların aparılma qaydasına oxşayır. Müzakirələri müəllim şagirdlərin arzularına müvafiq olaraq təşkil edir. Onun hazırlıq mərhələsi bir qədər çox vaxt tələb edir. Çünki şagirdlər bu müddət ərzində müəyyənləşdirilən əsəri oxumalı, çıxış üçün hazırlaşmalıdırlar. Müzakirə müəllimin giriş sözü ilə başlayır. Sonra çıxışlar olur və bunun ətrafında müzakirələr həyata keçirilir. Müzakirənin sonunda müəllim mövzunu ümumiləşdirir və qarşıya qoyulan məsələnin nəticəsini yoxlayır.

Fəaliyyət və davranışı stimullaşdıran metodlar (*rəğbətləndirmə, cəzalandırma və yarış*)

Pedaqoji qiymətləndirmə metodunun iki növü vardır. 1) açıq (*birbaşa*) pedaqoji qiymətləndirmə; 2) gizli (*dolayı*) pedaqoji qiymətləndirmə.

Açıq pedaqoji qiymətləndirmədən tək-tək vaxtlarda istifadə etmək lazımdır. Gizli pedaqoji qiymətləndirmə daha səmərəlidir. Açıq qiymətləndirmənin iki növü vardır: a) rəğbətləndirmə (*müsbət*); b) cəzalandırma (*mənfi*).

Rəğbətləndirmə şagirdlərin hərəkət və davranışlarına verilən müsbət qiymətin ifadə formasıdır. O, müsbət emosiyaların oyanmasına əsaslanır.

Rəğbətləndirmə aşağıdakı kimi təşkil olunur:

1) bəyənmək (*razılıq*) şifahi, mimika, gülümsəmək, başını tərpətmək və ya «yaxşı» sözünü deməklə həyata keçirilir;
2) təriflə qiymət vermənin əsaslarını açan təqdir etmənin geniş forması. Məsələn, «əla! İndi hamı üçün yaxşı olacaqdır».
3) mükafatlandırma – kitab vermək, qələm vermək, oyuncaq vermək və s.
4) təşəkkür etmək: – uşağın etdiklərinin əhəmiyyətinin fərdi və ya kollektiv olaraq tanınması. Təşəkkür yazılı və şifahi ola bilər. Təşəkkür daha çox yuxarı sinif şagirdləri üçün xarakterikdir;
5) şəklini şərəf lövhəsinə vurmaq. Onun əsas göstəricisinə, keyfiyyətinə görə tanınması və layiqliliyə inamın ifadə olunmasıdır;
6) qızıl və gümüş medalla təltif etmək. Medallar məktəb pedaqoji şurasının qərarı və Təhsil Nazirliyinin təsdiqi əsasında verilir. Qızıl medal o şagirdə verilir ki, bütün fənlər üzrə biliyi «5»-dir, davranışı nümunəvidir. Gümüş medal isə yekun qiymətləri əla olan, yalnız bir-iki fəndən «4» qiymət alan şagirdə verilir.

Cəzalandırma. Cəzalandırma da buna oxşar olur. Lakin onun qiymətləndirmə dairəsi dəyişir. Məktəblərimizdə cəza tədbirləri müxtəlifdir: 1) xəbərdarlıq etmək; 2) danlamaq; 3) irad tutmaq; 4) zövq almaqdan məhrum etmək; 5) töhmət vermək; 6) ünsiyyətdən məhrum etmək; 7) ayaq üstə saxlamaq; 8) dərsdən sonra saxlayıb tapşırığını icra etdirmək; 9) qrupunu dəyişmək; 10) məktəbini dəyişmək; 11) məktəbdən xaric etmək və s.

Ədəbiyyat

1. Pedaqogikanın əsasları Bakı-2005. – Məcid İsmixanov
2. Pedaqogika “Maarif”, Bakı-1996. – N.Kazımov, Ə.Həşimov
3 Pedaqogika “Maarif”, Bakı-2006- A.Eminov, İ.İsayev
4. Pedaqogika “Renesans” Bakı -2000- A.Abbasov, H.Əlizadə

Mövzu 4. Fəaliyyətin təşkili və ictimai davranış təcrübələrini formalaşdıran metodlar.

Plan: 1. Fəaliyyət və davranışı stimullaşdıran metodlar

2. Tərbiyədə nəzarət və özünüqiymətləndirmə metodları

***Fəaliyyətin təşkilinə və davranış təcrübəsinin formalaşdırılmasına xidmət edən metodlar* (*alışdırma metodu*).** Şagirdlərin davranış və fəaliyyətinin tənzimlənməsində adətlərin və iradənin böyük rolu vardır. Şagirdlərdə müsbət adətlər yaratmaq, o cümlədən möhkəm iradə tərbiyə etmək üçün alışdırma üsulundan geniş istifadə edilir. Tərbiyəvi hərəkəti uşağa dəfələrlə təkrar etdirmək alışdırma üsulu adlanır.

Hər hansı bir fəaliyyət növü insanın şüuru və davranışına güclü təsir göstərir. Məktəblinin bütün fəaliyyət növü şagirdlərin mənəvi, əxlaqi zənginliyində böyük rol oynayır. Şagirdlərin fəaliyyətinin düzgün təşkili onlarda müsbət adətlərin yaranmasında əsas şərtdir. Məsələn, məktəbli zəng vurulandan sonra müəllimi sinfin qapısı yanında deyil, partasının yanında qarşılamağa alışır. Müəllim sinfə daxil olanda artıq onun dərs üçün lazım olan ləvazimatları partası üzərinə qoyulmuş olur. Burada nə müəllim, nə də şagird vaxt itkisinə yol vermir. Digər tərəfdən, şagird hər gün evə girərkən ilk növbədə əllərini yuyur, sonra çörək yeməyə başlayır. Bu fəaliyyət dönə-dönə təkrar edilərək adət halına düşür. Şagird bu fəaliyyətə alışır. Alışdırma metodunu öyrənmək, məşq etmək də adlandırırlar. Alışdırma metodunun başlıca vasitələri aşağıdakılardan ibarətdir: rejim, oyun, tələb, ictimai rəy, ictimai-faydalı əmək.

Rejim insanın davranış və həyat tərzini qaydaya salan, müəyyən edilmiş qaydaların məcmusuna deyilir. Bu qaydalar məktəbdə şagirdlər üçün müəyyən edilmiş davranış normalarını nəzərdə tutur. Rejimin növlərindən olan vaxt cədvəli şagirdlərin gündəlik fəaliyyətini nizama salır. Rejim adətən uzunmüddətli xarakter daşıyır. Elə buna görə də o, tələb olunan hər hansı bir qaydanın hər gün icra edilməsini nəzərdə tutur. Rejim təkcə məktəb üçün nəzərdə tutulan fəaliyyəti nizama salmaq məqsədi güdmür. Eyni zamanda o, ailədə, məktəbdənkənar tərbiyə sahələrində də özünü göstərir.

Görkəmli pedaqoq A.S.Makarenko qeyd edirdi ki, rejim hər şeydən əvvəl elə bir vasitədir ki, bunun köməyi ilə kollektiv davranışın zahiri çərçivəsini müəyyən edir, eyni zamanda hər bir tərbiyə edilən uşağa bu çərçivəni daxili məzmunla doldurmaq imkanı verir. O, düzgün rejimin aşağıdakı əlamətlərini göstərirdi:

a) məqsədəuyğunluq: rejim formaları müəyyən məna və məntiqə malik olmalıdır;

b) dəqiqlik: heç bir istisnaya, yumşaqlığa yol verilməməlidir;

c) ümumilik: rejim hamı üçün məcburi olmalıdır;

ç) müəyyənlik: müəyyən edilmiş qaydaların məsuliyyətlə bölüşdürülməsində əsaslandırılmış reqlament olmalıdır.

Rejimin tətbiqi zamanı bir sıra şərtlərə əməl olunmalıdır:

1) əvvəla, rejimin tələbi məqsədəuyğun olmalı və şagird bunun zəruriliyini aydın dərk etməlidir;
2) rejim yaş imkanlarına uyğunlaşdırılmalıdır;
3) rejim müəyyən müddət üçün sabit olmalı və onun ödənilməsinə nəzarət olunmalıdır.

Şagirdin müəyyən edilmiş rejimə əməl etməsi vacibdir. Həmçinin yeri gəldikdə ona əməl olunması şagirddən tələb edilməlidir. Tələb həm də sərəncam xarakterli olmalıdır. Çünki şagird ona əməl olunmasının vacibliyini duymalıdır. Sərəncam verərkən müəyyən qədər ehtiyatlı olmaq lazımdır. Çünki şagird bəzən verilən sərəncamı yerinə yetirməkdən daşınır. Bu iki səbəbdən ola bilir: ya şagirdin gücünə uyğun olmamaqdan yaranır, ya da şagirdin laqeydliyindən irəli gəlir. Ona görə də təkidlə tələbin icrası yerinə yetirilməlidir. Məsələn, əgər şagird müəllimdən əvvəl qapıdan çıxıb ona yol vermirsə, bunun üçün şagirdi danlamağa lüzum yoxdur. Sadəcə olaraq, onu geri çağırıb qapıdan keçərkən müəllimi gözləməsini tələb etmək lazımdır. Tələb verərkən çalışmaq lazımdır ki, şagird onun yerinə yetirilməsinin zəruri olduğunu anlasın, onun daimi adətinə çalışılsın.

Tələb iki cür olur: birbaşa tələb və dolayı tələb. Birbaşa tələb üçün çətinlik, aydınlıq, konkretlik, dəqiqlik səciyyəvidir: Dolayı tələb: məsləhət, xahiş, işarə vurma, etibar etmə, bəyənmə və s. formalarda edilir. Şagirdlərə verilən tələblərdə bir sıra şərtlərə əməl etmək vacibdir. Əvvəla, tələbi necə vermək haqda düşünmək

lazımdır. Yəni verilən tələbin hökm şəklində qəbul edilməsinə nail olmaq lazımdır; ikinci, tələb obyektiv xarakter daşımalıdır. Burada müəllim hissə qapılmamalıdır; üçüncü, tələbin icrası diqqətdən yayınmamalıdır; dördüncü, tələblərin qiymətləndirilməsində müxtəliflik olmalıdır.

Alışdırma vasitələrindən biri də ***oyundur.*** Oyun fiziki tərbiyənin də vasitələrindən sayılır. Lakin eyni zamanda o, şagirdin fəaliyyətinə təsir göstərən, həmçinin əxlaqi hərəkətlərə alışdıran tərbiyə vasitəsidir. Uşaqlıq illərində oyun normal haldır və uşaqlar, hətta ciddi işlə məşğul olanda belə oynayırlar. Uşaqlarda oyuna böyük bir həvəs olur, ona görə də həvəsi həmişə təmin etmək lazımdır. Ona nəinki oynamaq üçün vaxt ayrılır, hətta oyunla uşağın bütün həyatına nüfuz edilir.

Hər bir oyunda adətən müəyyən qaydalar olur. Şagirdin öhdəsinə isə, ona əməl etmək düşür. Demək, oyun zamanı uşaq həm lazım gələn qaydalara əməl edir, həm də nəzarət funksiyasını yerinə yetirir. Beləliklə, uşaqlar özlərini tədricən bu qaydalara əməl etməyə alışdırırlar. Oyun uşaqlarda bir sıra keyfiyyətləri formalaşdırır. O, dostluq, əməkdaşlıq, qarşılıqlı hörmət, inam, məsuliyyət hissləri aşılamaqla bərabər, həmçinin uşaqlarda kollektivçilik ruhu yaradır, onlarda təşkilatçılıq qabiliyyəti formalaşdırır.

Tələbin kollektiv formalarından biri ***ictimai rəydir.*** O, şagirdlərin hərəkət və davranışının, arzu və istəyinin başqaları tərəfindən nəzərə alınması ilə bağlıdır. Şagirdlərin hərəkətlərinə verilən qiymət onlarda məsuliyyət hissi yaradır və işə daha həvəslə qoşulmaq istəyini artırır. Şagirdin hərəkət və davranışına kollektiv tərəfindən verilən qiymət, onda yüksək əxlaqi keyfiyyətlər tərbiyə edir. Kollektivdə ictimai rəy tənqidi qərarlar üzərində qurula bilər ki, bunlar da ictimai rəyin formalarından biri hesab olunur.

Şagirdlərin ***ictimai-faydalı əməkdə*** iştirakı tərbiyə işində böyük əhəmiyyət kəsb edir. Nədənsə şagirdlər indi əməyə məhəbbətdən uzaq düşür, asan yolla «pul qazanmaq» yolunu tapmağa çan atırlar. İndi, həm də uşaqlar arasında çox yayılan «xırda alver» onların əsas məşğuliyyət növünə çevrilib, ictimai-faydalı əməyə alışmaqdan uzaq qaçılır. Onları bu işə bilavasitə cəlb etmək üçün əməyin insan şəxsiyyətinə göstərdiyi müsbət təsiri başa salmaq lazımdır.

Fransız pedaqoqu J.J.Russo «əsl insanı» əməkdən kənarda görə bilmirdi. Russoya görə, ən yaxşı təhsilli adam belə, fiziki əməyə qabil deyilsə, natamam şəxsiyyətdir. İsveçrə pedaqoqu İ.H.Pestalotsi qeyd edirdi ki, yalnız əmək əsasında insanın

mənəvi qüvvələrinin və qabiliyyətlərinin inkişafı mümkündür. Əməyin tərbiyəvi təsiri böyükdür. Böyüyən uşaq əməyin çətinliklərini duymadıqda valideynlərinin çəkdiyi zəhməti qiymətləndirə bilmir, halal əməyə sahib olmaq istəmir. Ümumiyyətlə, alışdırma elə bir təsir növüdür ki, o uşağın daxili münasibətini təcəssüm etdirən real praktik hərəkətini təmin edir, onu başqası üçün görünən edir.

Hərəkətdə daxili və xarici münasibətlər birləşir. Uşaq hərəkət etmək üçün mütləq xarici formaya malik olmalıdır. Alışdırma metodu davranış bacarıqları tərəfindən belə təchizata kömək edir. O, aşağıdakı kimi yerinə yetirilir:

- Müəllimin nümunəsi ilə: məsələn, «kişi müəllimləri sinif otağına qadın müəllimləri girdikdə ayağa qalxır.
- Xahişlə uşağın ünvanına yönəldilmiş hər hansı bir işi görməklə: məsələn, «Xahiş edirəm kitabları uşaqlara apar».
- Xahişlə hərəkətin xarakterini dəyişmək və hər hansı bir işi görməklə: məsələn, mən sizdən xahiş edirəm geri qayıdasınız və yoxlayasınız ki, sinif əvvəlki kimi təmiz qalıbmı?!
- Etik-psixoloji qaydalarla bağlı oyunlar: məsələn, «vicdanla gizlənpaç oynamaq».
- Bir neçə davranış qaydalarını ənənəvi rəsmi şəklə salmaqla: məsələn, ancaq müəllim və uşaqların ünsiyyəti əsasında dərs «sağ ol», «sağ ol» təşəkkür mübadiləsi şərti ilə qurtarmış sayılır.
- Ekstremal situasiyada kiminsə ünvanına təhqirlər yağdırılan şəraitə qədərki fəaliyyətə əmr vermək. Məsələn, dalaşmanı kəsmək, başqasından icazəsiz götürülmüş əşyanı geri qaytarmaq.

Fəaliyyət və davranışı stimullaşdıran metodlar (*rəğbətləndirmə, cəzalandırma və yarış*)

Pedaqoji qiymətləndirmə metodunun iki növü vardır. 1) açıq (*birbaşa*) pedaqoji qiymətləndirmə; 2) gizli (*dolayı*) pedaqoji qiymətləndirmə.

Açıq pedaqoji qiymətləndirmədən tək-tək vaxtlarda istifadə etmək lazımdır. Gizli pedaqoji qiymətləndirmə daha səmərəlidir. Açıq qiymətləndirmənin iki növü vardır: a) rəğbətləndirmə (*müsbət*); b) cəzalandırma (*mənfi*).

Rəğbətləndirmə şagirdlərin hərəkət və davranışlarına verilən müsbət qiymətin ifadə formasıdır. O, müsbət emosiyaların oyanmasına əsaslanır.

Rəğbətləndirmə aşağıdakı kimi təşkil olunur:

7) bəyənmək (*razılıq*) şifahi, mimika, gülümsəmək, başını tərpətmək və ya «yaxşı» sözünü deməklə həyata keçirilir;

8) tərifl ə qiymət vermənin əsaslarını açan təqdir etmənin geniş forması. Məsələn, «əla! İndi hamı üçün yaxşı olacaqdır».

9) mükafatlandırma – kitab vermək, qələm vermək, oyuncaq vermək və s.

10) təşəkkür etmək: – uşağın etdiklərinin əhəmiyyətinin fərdi və ya kollektiv olaraq tanınması. Təşəkkür yazılı və şifahi ola bilər. Təşəkkür daha çox yuxarı sinif şagirdləri üçün xarakterikdir;

11) şəklini şərəf lövhəsinə vurmaq. Onun əsas göstəricisinə, keyfiyyətinə görə tanınması və layiqliliyə inamın ifadə olunmasıdır;

12) qızıl və gümüş medalla təltif etmək. Medallar məktəb pedaqoji şurasının qərarı və Təhsil Nazirliyinin təsdiqi əsasında verilir. Qızıl medal o şagirdə verilir ki, bütün fənlər üzrə biliyi «5»-dir, davranışı nümunəvidir. Gümüş medal isə yekun qiymətləri əla olan, yalnız bir-iki fəndən «4» qiymət alan şagirdə verilir.

Cəzalandırma. Cəzalandırma da buna oxşar olur. Lakin onun qiymətləndirmə dairəsi dəyişir. Məktəblərimizdə cəza tədbirləri müxtəlifdir: 1) xəbərdarlıq etmək; 2) danlamaq; 3) irad tutmaq; 4) zövq almaqdan məhrum etmək; 5) töhmət vermək; 6) ünsiyyətdən məhrum etmək; 7) ayaq üstə saxlamaq; 8) dərsdən sonra saxlayıb tapşırığını icra etdirmək; 9) qrupunu dəyişmək; 10) məktəbini dəyişmək; 11) məktəbdən xaric etmək və s.

Müasir tərbiyə praktikasında gizli pedaqoji qiymətləndirmə çox yayılmışdır. Onlara misal olaraq aşağıdakı nümunələri göstərmək olar:

- Həyatı hadisələrlə əlaqədar öz fikrini ucadan hamıya bildirmək: – Mən gözəl qızlardan kobud sözlər eşidəndə həmişə utanıram.
- Tərbiyəsiz hərəkət etdiyi zaman uşağın bu vəziyyəti barədə ucadan elan etmək: – Sən yəqin ki, çox pərt olmuşdun və özünə nəzarəti itirmişdin, əlbəttə indi sənə ayıbdır?
- Qiymətləndirməni uşağın öz öhdəsinə buraxmaq. Məsələn: nə deyirsən? Sən öz hərəkətindən razı qaldınmı?
- Qiymətləndirmə vaxtını uzatmaq. Məsələn: – mən sarsılmışam, özümə gələndə danışarıq.

Rəğbətləndirmə və cəzanın tətbiqi zamanı şagirdlərin yaşlarını və fərdi xüsusiyyətlərini nəzərə almaq lazımdır. Rəğbətləndirmə və cəzanın obyektivliyi, onların tətbiqində müəyyən həddin gözlənilməsi və s. çox vacibdir.

Fəaliyyət və davranışı stimullaşdıran metodlar sırasına yarış da daxildir. Yarış şagirdləri bir-biri ilə rəqabətə, bir-birindən fərqlənməyə, üstünlük qazanmağa təhrik edən metoddur. Yarış şagirdlər, siniflər, məktəblər arasında həyata keçirilir; məsələn, hansı sinifdə səliqə-sahman daha çox duyulur. Əlaçıların sayı hansı sinifdə çoxluq təşkil edir və edəcəkdir və s.

Tərbiyə metodlarından biri də müəllimin şəxsi nümunəsi adlanır. Məktəbə yeni gələn uşaqlar ilk növbədə müəllimin səmimi, gülərüz, mehriban siması ilə rastlaşırlar. Şagirdin təlimə, məktəbə münasibəti elə ilk növbədə müəllimin nümunəsi ilə başlayır. Sinifdən-sinfə keçdikcə şagirdlər müəllimin səmimiyyəti, düzgün qurulmuş ünsiyyəti ilə rastlaşırlar. Müəllimin danışığı, oturmağı, hətta yerişi də şagirdlərin diqqətindən qaçmır. Müəllim, müsbət keyfiyyətlərə görə özünə hörmət qazanır. Bəzən şagirdlər belə müəllimi özlərinə ideal seçir, onlara oxşamağa çalışırlar. Şagirdlər yaxşı müəllimi pis müəllimdən asanlıqla seçməyi bacarırlar. Danışığını bacarmayan, şagirdi papiros almağa göndərən, evinə kömək etməyə çağıran müəllimə şagird heç bir vaxt hörmət etmir. Müəllimin nümunəsinin tərbiyə işində böyük rolu olduğunu qeyd edən K.D.Uşinski göstərir ki, «Tərbiyəçinin, müəllimin cavan ruha təsiri elə bir tərbiyə qüvvəsidir ki, heç bir dərslik, heç bir əxlaqi nəsihət, heç bir cəza və rəğbətləndirmə onu əvəz edə bilməz».

Təkcə müəllimin deyil, valideynlərin, dostların, elm adamlarının, mədəniyyət xadimlərinin, tarixi şəxsiyyətlərin, o cümlədən bədii ədəbiyyatlardakı, nağıl və dastanlardakı müsbət qəhrəmanların nümunəsi də tərbiyə işində böyük gücə malikdir.

Tərbiyədə nəzarət, özünənəzarət və özünüqiymətləndirmə metodu. Tərbiyə prosesinin səmərəliliyi həm də nəzarət metodlarının köməyi ilə öyrənilir. Bu metod bütün tərbiyə metodları ilə vəhdətdə tətbiq edilir, fəaliyyəti tam əhatə edir. Özünənəzarət özünütərbiyənin mühüm komponentlərindən biridir. Sinif rəhbərləri, məktəbdə tərbiyə işinə cavabdeh olan təşkilatçı müxtəlif metodlarla şagirdləri öyrənir və onların tərbiyəsi ilə məşğul olurlar. Tərbiyədə nəzarət, özünənəzarət və özünüqiymətləndirmə metodları qarşısında bir sıra şərtlər qoyulur ki, bunlara əməl olunması vacibdir. Birinci növbədə tərbiyənin mahiyyəti, məzmunu, məqsədi, vəzifələri, əhəmiyyəti dərk olunmalıdır; ikinci, tərbiyə işinin düzgün təşkilinə ciddi diqqət yetirilməlidir; üçüncü, tərbiyə işində nəzarət və özünüqiymətləndirmənin həyata keçirilməsi unudulmamalıdır. Ümumiyyətlə, tərbiyənin metodlarının həyata keçirilməsi çox ciddi psixoloji diqqət tələb edir. Buna görə də onlara xüsusi pedaqoji peşəkarlıqla yanaşmaq lazımdır.

Ədəbiyyat

1.Pedaqogikanın əsasları Bakı-2005. – Məcid İsmixanov

2. Pedaqogika “Maarif”, Bakı-1996. – N.Kazımov, Ə.Həşimov

3 Pedaqogika “Maarif”, Bakı-2006- A.Eminov, İ.İsayev

4. Pedaqogika “Renesans” Bakı -2000- A.Abbasov, H.Əlizadə

Mövzu 5. Elmi dünyagörüşünün formalaşdırılması

Plan:

1. Elmi dünyagörüşünün mahiyyəti və formalaşdırılması prosesi

2. Elmi dünyagörüşü tərbiyəsinin yolları
3. Elmi dünyagörüşün tərbiyəvi vasitələri

Dünyagörüşü ictimai və fərdi şüurun törəməsidir. O, dünyaya baxışı ifadə edir, daha dəqiq desək, dünyaya və dünyada insanın yeri haqqında təsəvvürlərə deyilir. Rus alimi Vladimir Solovyev dünyagörüşünü «əqli pəncərə» adlandırmışdı. O qeyd edirdi ki, tarixən xalqların həyatı hər şeydən əvvəl, onların əsas əqidələri, ümumi dünyagörüşü ilə müəyyən olunur. Onun bilik, əqidə, etiqad, əhval-ruhiyyə, cəhdlər, ümidlər, mənəvi dəyərlər, normalar, ideallar və s. kimi komponentləri vardır. Dünyagörüşünün quruluşunda dörd əsas komponent vardır.

1. *İdrakı komponent*. Bu, gündəlik, peşə, elmi və s. ümumiləşdirilmiş biliklərə söykənir. İdrakı komponent dünyanın elmi mənzərəsini, fərdi və ictimai idrakın ümumiləşdirilmiş və sistemə salınmış nəticələrini, hər hansı bir insan birliklərinin, xalqların, yaxud dövrlərin təfəkkür üslubunu əks etdirir.

2. *Dəyər-normativ komponent*. Buraya dəyərli ideyalar, əqidələr, etiqadlar, normalar, göstərişlə görülən işlər və s. daxil edilir. Dünyagörüşü təkcə insanın hər hansı bir ümumiləşdirilmiş biliyə arxalanmasını deyil, onun müəyyən ictimai nizamlayıcılarla fəaliyyətini göstərir. Dəyər hər hansı predmetin xassəsi, insanın arzu və tələbatlarının ödənilməsidir. İnsanın dəyərlər sisteminə xeyir və şər, xoşbəxtlik və bədbəxtlik, həyatın məqsədi və mənası haqqındakı təsəvvürləri və s. daxil edilə bilər. Məsələn, həyat-insanın başlıca dəyəridir.

3. *Əxlaqi-iradi komponent* – dəyər və normaların praktik olaraq reallaşmasını əks etdirir. Müəyyən psixoloji və pedaqoji qaydaların həyata keçməsinə imkan verir.

4. *Praktik komponent*. O, davranışın müəyyən tipini stimullaşdırır, çertyojlaşdırır. Başqa sözlə, bu konkret şəraitdə müəyyən davranış tipinə insanın real hazırlığı deməkdir.

Dünyagörüşü – insanın, ictimai qrup və təbəqələrin fəaliyyət istiqamətini və gerçəkliyə münasibətini müəyyən edən baxışdır.

Dünyagörüşü nəinki şəxsiyyətin, həmçinin cəmiyyətin göstəricisidir. Dünyagörüşünün formalaşmasında elmi, fəlsəfi, siyasi, hüquqi, əxlaqi, estetik görüşlərin, ekoloji təfəkkürün rolu böyükdür. Fəlsəfi baxışlar və əqidələr dünyagörüşünün sistemini təşkil edir. Dünyagörüşü sistemində əqidənin çox mühüm rolu vardır. Əqidə həm biliyə, həm də gerçəkliyə əxlaqi və emosional-psixoloji münasibətdir. Məhz biliklərə əsaslanan əqidə şəxsiyyətin fəallığının mənbəyidir.

Dünyagörüşü *elmi* və *qeyri-elmi* ola bilər. Elmi dünyagörüşü həyata elmi baxışların ümumiləşmiş sistemidir.

Tarixən dünyagörüşünün birinci forması mifologiya hesab olunur. ***Mifologiya*** – yunanca *mifos* və *loqos* sözündən əmələ gəlmiş, mənası rəvayət-əfsanə, nağıl, dastan, söz anlayışı kimi başa düşülür. O, ictimai inkişafın ilkin mərhələsi üçün səciyyəvi olan dünyanı anlama üsuludur. Hər bir xalqın özünəməxsus mifologiyası vardır. Miflər bəşəriyyətin mənəvi mədəniyyətinin ən qədim formasıdır. O, özündə dini etiqadları, siyasi baxışları, incəsənətin müxtəlif növlərini və fəlsəfəni birləşdirir. Mif şüurun vahid, bölünməz, universal formasıdır.

Dünyagörüşünün spesifik formalarından biri də dindir. Din bir və bir neçə allahın, «müqəddəslərin» – yəni fövqəltəbiiliyin bu və ya digər növünün reallığına inamı əsas götürən dünyagörüş, davranış və spesifik fəaliyyətdir. Din dünyanı axirət və təbii dünyaya bölür. Dinin spesifikası onun «ikinci dünyanı» kəşf etməsinin xüsusi xarakteri və məzmunu ilə bağlıdır. Onun başlıca cəhətləri etiqad və ayinçilikdir. Dinin daxili cəhəti etiqad, xarici cəhəti ayinçilikdir. Ayinçilik dinin praktik, özününümayiş, özünütəbliğ cəhətidir. Etiqad, əqidə-insanın daxili aləmini səciyyələndirir.

Din mürəkkəb ictimai və tarixi səciyyə daşıyır. Onun tarixi vəzifəsi insanlar arasında vəhdətlik, vahidlik əqidəsinin yaradılmasıdır, ümumbəşəri əxlaq normalarının formalaşdırılmasıdır. Din zəngin mərasim və ayinləri ilə xeyirxahlıq, nəciblik, borc, ədalət, vicdan və s. keyfiyyətlərin təbliğinə kömək edir. O, daim insan mənəviyyatını zənginləşdirir. Məlum olduğuna görə miladdan xeyli əvvəl Azərbaycan ərazisində sinifli cəmiyyətin yaranması ilə əlaqədar yeni dini etiqadlar əmələ gəlmişdi. Eramızdan əvvəl Şərqdə Zərdüşt dini meydana çıxdı. Az bir zaman içərisində bu dini ehkamlar Şərq ölkələrinə yayıldı və «Avesta»da şərh edildi.

Zərdüştlüklə bərabər, Azərbaycanın bəzi yerlərində xristian və bütpərəstlik dinləri yayılmışdı. Dünyada geniş yayılmış monoteist (*təkallahlıq*) dinlərindən biri olan İslam VI əsrin əvvəllərində Ərəbistan yarımadasında, qəbilə-tayfa münasibətlərinin yarandığı dövrdə meydana gəlmişdi. Sonralar Asiya və Afrikada geniş, Avropada qismən yayılmışdı. V-VII əsrlərdə Ərəbistanda 360-dan artıq qəbilə allahının mövcudluğu, bütpərəstlik ənənələri qəbilələrin birləşməsinə mane olurdu. Birləşmə meyli monoteist dini doğurdu. VII əsrin əvvəllərində Məkkədə qüreyşilər bir sıra qəbiləni özünə tabe edərək vahid tayfa ittifaqı yaratdılar. Bu ittifaqın mənəvi-dini həyatında Kəbə mühüm rol oynayırdı. Bədəvi ərəb qəbilələrinin birləşdirilməsində İslam dini mühüm rol oynadı. İslam dini ərəb qəbilələri arasındakı çoxdinliliyə son qoydu. İslam dininin yaradıcısı Məhəmməd ibn Abdulla (570-632) olmuşdu. İslam dininin ideya mənbələri qədim Şərq, xüsusilə ərəb mifologiyası olmuşdur.

Məktəblilərin dünyagörüşünün inkişafında sinifdənxaric tədbirlərin də böyük rolu vardır. Din xadimləri ilə keçirilən görüşlər, şəriət qanunlarının əhəmiyyəti ilə bağlı müsahibə-konfranslar keçirmək, ilahiyyat fakültəsinin müəllim və tələbələri ilə görüşlər təşkil etmək, şagirdləri ruhani məktəbinə ekskursiyaya aparmaq, İmam Həzrəti-Əlinin həyatını əks etdirən kino-filmin göstərilməsini həyata keçirmək, İslam dininin fəlsəfi - pedaqoji mahiyyəti, İslamda əxlaqi tərbiyə məsələləri haqda disputlar təşkil etmək və s. bu cəhətdən əhəmiyyətlidir.

Şagirdlərin dünyagörüşü ilk növbədə təlim-tərbiyə prosesində formalaşdırılır. Məktəbdə tədris olunan ümumtəhsil fənlərinin əksəriyyətində bu imkan mövcuddur. Məsələn, məktəbdə tədris olunan tarix dərsləri Azərbaycanın qədimdən indiyədək keçdiyi tarixi yoldan, yadellilərə qarşı azadlıq mübarizəsindən, bu mübarizədə misilsiz rəşadət göstərmiş Cavanşirlərin, Babəklərin, Koroğluların, Nəbilərin, Həzi Aslanovların və b. tarixi qəhrəmanlıqlarından, Azərbaycan xalqının əldə etdiyi cahanşümul nailiyyətlərdən soraq verir. O, gənc nəsildə milli şüurun, milli yaddaşın formalaşmasına kömək edir. Azərbaycan xalqına milli mənəvi və mədəni dəyərlərini qoruyub saxlamaq və inkişaf etdirmək ənənələri aşılayır.

Ədəbiyyat

1. Pedaqogikanın əsasları Bakı-2005. – Məcid İsmixanov

2. Pedaqogika “Maarif”, Bakı-1996. – N.Kazımov, Ə.Həşimov

3 Pedaqogika “Maarif”, Bakı-2006- A.Eminov, İ.İsayev

4. Pedaqogika “Renesans” Bakı -2000- A.Abbasov, H.Əlizadə

Mövzu 6. Əqli və ideya siyasi tərbiyə.

Plan:

- Əqli tərbiyənin qarşısında duran vəzifələr
- İdeya siyasi tərbiyənin mahiyyəti
- İdeya və siyasi tərbiyə məzmunu və vəzifələri

4. İdeya siyasi tərbiyə yollarının vasitələri

Əqli tərbiyə insanın kamilliyində, dünyagörüşünün formalaşmasında, mənəvi cəhətdən yetkinləşməsində, fəallığında çox böyük rol oynayır.

Əqli tərbiyə pedaqoji ədəbiyyatda tərbiyənin tərkib hissələrinin əvvəlincisi sayılır. O, təfəkkür hadisələri ilə bağlı məsələləri özündə birləşdirir. Bu, insanın düşüncə və şüurunda özünü göstərir və insanın fəallığını təmin edir. Pedaqoji ədəbiyyatların bir qismində əqli anlayış «ağıl» anlayışı kimi də işlədilir. O, idrak prosesini özündə əks etdirən tərbiyədir. Ağıl, zəka insanı başqa canlılardan fərqləndirən ən başlıca amildir. Yunan filosofu Aristotel qeyd edirdi ki, «insanın digər canlılardan başlıca üstünlüyü onun ağlıdır. Əqli fikirləşmək qabiliyyətidir, öz iradəsini formalaşdırmaqdır».

Böyük yazıçı N.Gəncəvi müdrikliyin, ağıllılığın əsasını elm və təhsildə görürdü. O qeyd edirdi ki, cəmiyyətin ən kamil vətəndaşı elmə qabil, təhsilli, maarifpərvər və müdrik olan adamdır. Buna görə hər bir kəs ağıllı olmağa, biliklərə yiyələnməyə, müdrik insanlardan öyrənməyə çalışmalıdır.

Xalq arasında da ağılın gücünə, qüdrətinə verilən qiymət aydın duyulur. Xalq ağılın, zəkanın qızıldan, zinətdən, var-dövlətdən, puldan da üstün olduğunu bildirir:

«Bu dünyada maldan-puldan

Bir ağıllı baş yaxşıdır.

Anlamayan bir kəllədən

Bircə qara daş yaxşıdır».

Xalq deyir ki: «ağıl hər şeydən üstündür», «insanı geyimi ilə qəbul edərlər, ağlı ilə yola salarlar», «ağıllı neynir dədə malını» və s.

Şifahi xalq ədəbiyyatının nümunələrindən olan nağıllarda ağılın rolu ön plana çəkilir. Nağıl qəhrəmanları-padşahın kiçik oğlu, padşahın qızı, orada verilən keçəl surətləri, padşahın tələxəkləri əsasən ağıllı şəxslərdir. Əqil beynin məhsulu olan təfəkkürə əsaslanır. Əqli tərbiyə təfəkkür əməliyyatlarını təcəssüm etdirir. Təfəkkür cisim və hadisələrin mahiyyətinin, onlar arasındakı əlaqə və asılılıqların insan şüurunda ümumiləşmiş və vasitəli inikasından ibarət olan idrak prosesidir. Təfəkkür insanlara mənsubdur. İnsan məhz təfəkkür sayəsində gerçəkliyi daha dərin, tam və dəqiq dərk edir. Təfəkkürün aşağıdakı növləri vardır. Məntiqi, mücərrəd, əyani-əməli, əyani-obrazlı və s.

Obyektiv gerçəkliyin qanunauyğun əlaqələrinin düzgün inikas etdirilməsi ilə əlaqədar olan təfəkkürə məntiqi təfəkkür deyilir.

Məntiqi təfəkkür bilikləri əlaqəli şəkildə, köhnə biliklərlə yeni biliklər arasında sıx bağlılığın yaradılması şəklində təzahür edir.

Mücərrəd təfəkkür zamanı fikri fəaliyyət əsasən ümumi və mücərrəd məfhumlara istinad edir. Mücərrəd təfəkkür sayəsində təbiətin, cəmiyyətin, insanın özünün inkişafının ümumi qanunauyğunluqlarını ümumiləşdirmək mümkündür.

Əyani-əməli təfəkkür bilavasitə təsir edən cisim və hadisələrin dərk edilməsi ilə əlaqədar, yəni əşyalar üzərində praktik fəaliyyətlə bağlı təfəkkür növüdür. Təfəkkür insanlara mənsub mürəkkəb psixi proses hesab olunur. Lakin məzmun və inkişaf səviyyəsi baxımından o, hamıda eyni səviyyədə olmur. Ona görə ki,

insanların təfəkküründə bir sıra fərdi xüsusiyyətlər mövcuddur. Bu fərdi xüsusiyyətlər ağılın keyfiyyətlərində daha qabarıq təzahür edir. Buraya əsasən ağılın müstəqilliyi, tənqidiliyi, çevikliyi, genişliyi, dərinliyi, fikrin sürəti daxildir. Qeyd olunan bu keyfiyyətlər, şagirdlərin təfəkkürünün fərqli cəhətlərə malik olduğunu göstərir və təlim-tərbiyə prosesində onları nəzərə almaq tələbatı doğurur.

Əqli tərbiyənin mühüm vasitələrindən biri təlim prosesidir. Tədris fənləri şagirdlərin əqli tərbiyəsinə, onların dünyagörüşünün formalaşmasına xidmət göstərirlər.

Ayrı-ayrı fənlərə dair təşkil edilən fənn dərnəkləri də əqli tərbiyənin həyata keçirilmə vasitələrindən biridir. Şagirdlərin yaradıcı qabiliyyətlərinin inkişaf etdirilməsində dərnəklərin rolu böyükdür. Keçirilən olimpiadalar da əqli tərbiyənin vasitələrindən biridir. Əqli tərbiyənin mühüm vasitələrindən biri də müxtəlif istiqamətli əsərlərin mütaliəsidir. Bununla bərabər, tarixi yerlərə təşkil edilən ekskursiyalar, dünya alimləri ilə keçirilən görüşlər, elmi-kütləvi yığıncaq və gecələrin təşkili və keçirilməsi də əqli tərbiyənin vasitələrindəndir. Əqli tərbiyə aşağıdakı imkanlara malikdir:

- şagirdləri bilik, bacarıq və vərdişlərlə silahlandırır, onlarda elmi dünyagörüşün formalaşmasına kömək edir;
- şagirdlərdə məntiqi təfəkkürün inkişafına kömək edir, onların müstəqil düşünmə qabiliyyətlərini artırır;
- həyat hadisələrinə, insanlara düzgün münasibəti formalaşdırır.

Tərbiyənin ali məqsədi cəmiyyət üçün vətəndaşlar tərbiyə etməkdir. Vətəndaşlıq əsl mənada insanın özündə ideya inamı, həyata şüurlu baxış, əmək işlərində fəal iştirak etmək, ünsiyyət və davranışda yüksək mədəniyyət və s. nümayiş etdirmək bacarığında özünü büruzə verir. Vətəndaşlıq şüurunun yüksək olması tərbiyənin düzgün qurulmasından çox asılıdır. Vətəndaşlıq tərbiyəsinin əsas məqsədi böyüməkdə olan nəslin ahəngdar inkişafı prosesində vətəndaşlıq duyğuları yaratmaq, o cümlədən vətəndaş olduğunu ona dərk etdirməkdən ibarətdir. Vətəndaşlıq tərbiyəsinin mahiyyətini insanın həyatda gərəkli şəxsiyyət, cəmiyyətin bir üzvü kimi fəallığını göstərməyə nail olmaq bacarığı təşkil edir.

Vətəndaşlıq tərbiyəsinin məzmununa daxil olan, siyasət, daxili həyatın quruluşu və beynəlxalq münasibətlər sahəsində cəmiyyətin sosial və milli qrupların başlıca maraqlarını ifadə və təmin edən ictimai şüurun formasıdır. Siyasi şüur cəmiyyətin yeniləşməsinin nəzəriyyəsi, praktikası və dünyagörüşü ilə müəyyən olunur. O, insanların əsas maraqlarını təmin etmək, ümumxalq məqsədlərinə nail olmaq məqsədini güdür. Siyasi şüur bir sıra psixi prosesləri və insanın vəziyyətini özündə əks etdirən tam möhkəm sosial-psixoloji bilikdir. Siyasi şüurluluq onun tərkib hissəsidir. O, insanın siyasi dünyagörüşü xəttini nə dərəcədə dərk etdiyini göstərir və onların həyata keçirilməsində dəyanətlilik nümayiş etdirir.

Vətəndaş tərbiyəsinə ümumbəşəri baxış. Vətəndaş tərbiyəsi ümumbəşəri hadisədir. Yer kürəsi vahid ekoloji sistemdir. Bütün ölkələrin qarşılıqlı iqtisadi, siyasi, mədəni əlaqələri artır və genişlənir. BMT-də birləşmiş dünya birliyi qlobal və regional problemlərin həll edilməsinə güclü təsir göstərir. Planet və sivilizasiyanı qoruyub saxlamaq üçün insanlar, dünya birliyi daxilində ziddiyyətləri, qarşıdurmaları siyasi, dinc yolla həll etməyə borcludurlar. Qlobal problemlərin həll edilməsinə bütün ölkələrin məktəbliləri və pedaqoqları da öz töhfələrini verməlidirlər.

Vətəndaş tərbiyəsinin ümumbəşəri mahiyyətini uşaqlarda dünyanın birliyi, qarşılıqlı asılılığı, sülhün qorunmasının və tərksilahın, ekoloji problemin, dünya mədəniyyətinin qorunub saxlanılmasının, iqtisadi, elmi, mədəni əməkdaşlığın, habelə qlobal ziddiyyətlərin həll edilməsində ictimai fəallığın bütün xalqlar üçün eyni dərəcədə əhəmiyyət kəsb etdiyinin dərk olunmasını formalaşdırmaq təşkil edir.

Ədəbiyyat

1. Pedaqogikanın əsasları Bakı-2005. – Məcid İsmixanov
2. Pedaqogika “Maarif”, Bakı-1996. – N.Kazımov, Ə.Həşimov
3 Pedaqogika “Maarif”, Bakı-2006- A.Eminov, İ.İsayev
4. Pedaqogika “Renesans” Bakı -2000- A.Abbasov, H.Əlizadə

Mövzu 7. **Əxlaq tərbiyənin mahiyyəti**

Plan:

- Əxlaq tərbiyənin mahiyyəti və nəzəri psixoloji əsasları
- Əxlaq tərbiyəsinin vəzifələri və məzmunu
- Əxlaq tərbiyəsini vasitə və metodları

Tərbiyənin tərkib hissələrindən biri də mənəvi-əxlaq tərbiyəsidir. "Mənəviyyat" ərəbcə "Məna" sözündən əmələ gəlmiş, insanın həyatının mənası, dəyəri deməkdir. Mənəviyyat insanın qəlbinin, ürəyinin gücü, paklığı, təmizliyi, düzlüyü deməkdir. Ona görə də mənəvi tərbiyə qəlb tərbiyəsi ilə bağlıdır. Mənəviyyat insanın daxili aləmini, xarakterini, insanlara, ətraf aləmə, hadisələrə münasibətini əks etdirən fərdi kateqoriyadır. Mənəviyyat insanın intellektual və təbii mahiyyətidir ki, bu, onun ruhi tərbiyəsini, daxili aləmini xarakterizə edir və özünü ifadə edir. Mənəviyyat şəxsiyyətin özünə, onu əhatə edənlərə, cəmiyyətə və cəmiyyətin real hadisələrinə münasibətini, davranışını təzahür etdirən başlıca meyardır. O, genetik mənəvi keyfiyyətlər istisna olmaqla dünyaya gəldiyi andan insan həyatının müxtəlif mərhələlərində formalaşıb təkmilləşir. Əxlaq mənəviyyatın ayrılmaz tərkib hissəsidir. Deməli, mənəviyyat əxlaqa nisbətən daha geniş məna daşıyır. Əxlaq şəxsiyyətin, fərdin cəmiyyətdə, kollektivdə davranış, ədəb-ərkan normalarına riayət etmək sistemidir. Mənəviyyat isə bəsit və yüksək dünyagörüşə, mənəvi hissələrə malik olmaq, cəmiyyətdəki əxlaqi ideyalara, normalara hörmət etmək, şüurlu əxlaqi keyfiyyətlərə yiyələnmək deməkdir. Əxlaq ictimai şüur formalarından biridir. İctimai həyatın bütün sahələri (*məişət, ailə, əmək prosesi, elm və siyasət*) insanların davranışını tənzim edən sosial sistemdir. Əxlaq insanların öz davranışlarında rəhbər tutduqları prinsip, forma və qaydaların məcmusu və onların həyatda bir-birinə, ailəyə, əmək kollektivinə, millətə, bütövlükdə cəmiyyətə olan münasibətlərinin ifadəsidir. Əxlaqın səciyyəvi xüsusiyyəti insan hərəkətini qiymətləndirməkdir. Onun insan davranışı üçün vacib saydığı norma və tələblər tarixən müəyyən cəmiyyətin xeyir və şər, əxlaqi borc, vicdan, ədalət və ədalətsizlik, rəhm və qəddarlıq və s. haqqındakı təsəvvürlərini ifadə edir. Əxlaqın dərin ictimai funksiyası vardır. Əxlaq insanların çoxəsirlik

yaşamaq uğurunda mübarizəsindən meydana gəlmişdir. Belə ki, bu, cəmiyyətin öz insanların davranışını müəyyən norma və qaydalara salmaq, onu tənzim etmək tələbatından törəmişdir. İnsanlar tarix boyu öz əxlaqları ilə hörmət qazanmışlar. Əxlaq danışıqda çox vaxt ismətli, ədəbli, mərifətli, tərbiyəli sözlərinin sinonimi kimi işlədilir. «Dostunu mənə göstər, deyim sən kimsən», «Nə tökərsən aşına, o da çıxar qaşığına» və s. atalar sözləri əxlaqi tərbiyə nümunəsidir. Əxlaq tərbiyəsi məktəblilərdə əxlaqi görüş, əxlaqi hiss və davranışın formalaşdırılmasıdır. Professor M.Muradxanov məktəblilərin əxlaq tərbiyəsindən danışarkən qeyd edirdi ki, tərbiyə prosesində insana birtərəfli deyil, hərtərəfli təsir etmək, tərbiyəvi təsiri uşaqların həm düşüncəsinə, həm hərəkətlərinə, həm də hissi aləminə yönəltmək lazımdır. İnsanın əxlaqi inkişafı ömrü boyu davam etsə də, onun başlıca keyfiyyətləri, əsasən uşaqlıq, yeniyetməlik və gənclik dövründə təşəkkül tapır, sonrakı yaşlarda isə qazanılmış müsbət keyfiyyətlərlə möhkəmlənir.Əxlaq tərbiyəsinin mahiyyətini adamın özündə başqalarına, əməyə, vətənə, dostlarına, yoldaşlarına şüurlu münasibətin formalaşması təşkil edir. Əxlaq tərbiyəsinin məzmunu onun məqsədi ilə bağlıdır. Xalqımızın sevilən yazıçısı M.F.Axundov vətənpərvərlikdən danışarkən qeyd edir ki, «Patriot-ibarətdir o kimsədən ki, vətənə təbəssümü üçün və millətin məhəbbəti üçün can və malını müzayiqə etməyə və öz vətəninin və millətinin mənfəəti və azadiyyəsi üçün cəfakeş ola». Vətən və vətənpərvərlik hissi analarımızın beşik başında dediyi laylalardan, oxşamalardan, nənələrimizin söylədiyi nağıllardan, bayatılardan yaranır. V.A.Suxomlinski qeyd edirdi ki, vətən uşaq üçün bir parça çörəkdən və buğda zəmisindən, meşə kənarından və kiçik göl üzərindəki mavi səmadan… başlayır. Doğrudan da vətən anadan olduğun torpaqdan onun daşından, dərə-təpəsindən, çəmənliklərindən, gül-çiçəyindən, yaşadığın evdən, kənddən, vilayətdən başlayır. Vətənpərvərlik tərbiyəsinin düzgün aşılanması uşaqların vətəndaş kimi formalaşmasına səbəb olur. İnsanın öz vətənini, ləyaqətini, mənliyini qorumağı bacarması onun vətəndaş yetkinliyindən xəbər verir*. Vətəndaş yetkinliyi insanın öz ləyaqət hissini ucaltması, qoruması, özünün ictimai dəyərini daha artıq dərk etməsi deməkdir. Bu yetkinlik hər bir kəsin ideya-siyasi istiqaməti və əqidəsi ilə müəyyən edilir. Vətəndaşlıq yetkinliyi insanda borc, məsuliyyət, vicdan, ləyaqət və dəyanətin formalaşması ilə ölçülür. Vətəndaşlıq ləyaqəti doğma torpağa, ana vətənə, elə - obaya məhəbbətdir. Vətəndə gözü olanlara qarşı barışmaz, kinli, mövqe tutmaq xalqının azadlığı və istiqlaliyyəti uğrunda mübariz hisslər daşımaq deməkdir. Vətəndaşlıq ləyaqətində vicdan əsas şərtdir. Vicdan insanın daxili

hakimi, onu yüksəldən ülvi bir dəyərdir. Vicdan ədalətlə ayrılmazdır. O, ləyaqəti yüksəldən amillərdəndir. Bunların şagirdlər tərəfindən dərk olunması onlarda ali hisslərin formalaşmasına səbəb olur.*

Sadə və təvazökar adamlar başqalarını dinləməyi bacarır, onların ağıllı məsləhətini qəbul edirlər. Sadə və təvazökar şagirdlər başqalarının müvəffəqiyyətlərinə sevinir, onları başqalarının gözündə ucaltmağa çalışırlar. Sadəlik və təvazökarlıq hər bir şagirdin təlim-tərbiyə prosesində özünü düşüncəli, nəzakətli aparmasına kömək edir. Bu keyfiyyətə yiyələnən şagirdlər lovğalıqdan uzaq olur, əldə etdikləri müvəffəqiyyəti başqalarına tez-tez çatdırmır. Onlar xalqın söylədiyi atalar sözlərini xatirələrindən çıxartmadıqları üçün qürrələnməkdən, lovğalıqdan uzaq qaçırlar. Atalar demişdir: «Ağac bar gətirəndə başını aşağı dikər».

Tərbiyə prosesini səmərəli həyata keçirmək üçün ilk növbədə uşaq şəxsiyyətinin mahiyyəti barədə dəqiq təsəvvürün olması zəruridir. Bunu müəyyən etmək üçün uşaqların yaş xüsusiyyətləri nəzərə alınmaqla onların şəxsiyyətinin başlıca keyfiyyət və xassəsinə olan əsas tələblərin izah edilməsinin mühüm əhəmiyyəti vardır. Bunun üçün birinci növbədə yaş dövrlərinə əsaslanmaq lazımdır. Məktəblilərin yaş xüsusiyyətlərinə uyğun tələblər irəli sürülməlidir. Hər bir yaş dövründə onlar əsasən: nə? necə? kimin? kimlə? nə üçün? sualları ilə ***bilmək, bacarmaq, sevmək, dostluq etmək, çalışmaq, mübarizə etmək, mühafizə etmək, kömək etmək, yaratmaq*** anlayışlarına cavab verirlər. Bu ümumiləşmiş doqquz tələb uşaq şəxsiyyətinin bir çox əxlaqi cəhətlərini özündə birləşdirir. Müxtəlif yaş qruplarına görə aşağıdakı təxmini tələblər müəyyənləşdirilir.

Ədəbiyyat

1. Pedaqogikanın əsasları Bakı-2005. – Məcid İsmixanov
2. Pedaqogika “Maarif”, Bakı-1996. – N.Kazımov, Ə.Həşimov
3 Pedaqogika “Maarif”, Bakı-2006- A.Eminov, İ.İsayev
4. Pedaqogika “Renesans” Bakı -2000- A.Abbasov, H.Əlizadə

Mövzu 8. Əmək tərbiyəsinin mahiyyəti haqqında

Plan:

1. Əmək tərbiyəsinin əhəmiyyəti, vəzifələr
2. Əmək tərbiyəsinin məzmunu və yolları
3. Peşəyönümlü tərbiyə
4. İqtisadi tərbiyə haqqında

Əmək insanın maddi və mənəvi tələblərini ödəməyə yönəldilən, əsas fiziki və mənəvi qüvvələrini inkişaf etdirən şüurlu, faydalı, yaradıcı intellektual fəaliyyətdir. Şüurlu əmək insanlar tərəfindən zəhmətin ictimai və fərdi əhəmiyyətinin, onun nəticələrinə münasibətlərinin dərk olunması sayəsində yaranır və inkişaf edir. Şüurlu əməyin məzmununu istehsalat təcrübəsi, peşə bilikləri, bacarıq və vərdişləri təşkil edir. Buna habelə, şəxsi maraq göstərmək, bacarıqlılıq, öz ictimai vəzifəsinin əhəmiyyətini və əməyinin hər bir nəticəsi üçün məsuliyyət daşımasını başa düşməsi, ona fəal və yaradıcı münasibət də daxildir. Şagirdlərin əmək tərbiyəsi əməyə hazırlıq və peşə seçməklə bağlı şəxsi keyfiyyət və xüsusiyyətlərin formalaşdırılması, inkişaf etdirilməsi və tərbiyə edilməsi kimi başa düşülür. Şagirdlərin əmək tərbiyəsinin məzmunu ölkənin ictimai-siyasi, iqtisadi-təbii şəraiti, məktəbin mövcud tələbatı ilə müəyyən edilir. Əmək insanın tərbiyəsi üçün həmişə əsas sayılmışdır. İnsani keyfiyyətlərin məhz əmək prosesində formalaşdığı da bir həqiqətdir. İnsanın xəmiri zəhmətdən yoğrulduğu kimi, nəcib keyfiyyətləri də əmək fəaliyyəti zamanı təşəkkül tapmışdır. Məktəblərdə onun planlaşdırılması, təşkili və həyata keçirilməsinə bu və ya digər şəxsi keyfiyyətləri inkişaf etdirən vahid proses kimi baxılmalıdır. Əmək tərbiyəsi işində məktəblərdə o zaman müvəffəqiyyət qazanmaq olar ki, ona sistemli yanaşılsın və tərbiyənin tərkib hissələrindən biri olduğu unudulmasın. Şüurlu əmək insanda çalışqanlıq, şəxsi əməyinin keyfiyyətini artırmaq bacarığını formalaşdırır. Əməyin yaradıcı, inkişafetdirici və tərbiyəedici funksiyaları vardır. Əməyin yaradıcı funksiyası müasir dövr üçün daha aktualdır. O, bazar münasibətləri şəraitində uşaqlarda sahibkarlıq hissi yaratmaqla sıx bağlıdır. İnkişafetdirici funksiyası əmək prosesinə qoşulan insanın əsas qüvvələrini hərəkətə gətirməklə şərtlənir. O, uşağın intellektuallığı, əzələləri, əl və ayağının cəldliyi, iradəsi ilə ölçülür. Bazar iqtisadiyyatı şəraitində bu, uşaqlarda texniki təlimə,

qarışıq peşələrə yiyələnmək vərdişləri yaratmağa xidmət edir. Tərbiyəedici funksiya əmək prosesində uşaqlarda dəyərli keyfiyyət və xüsusiyyətləri inkişaf etdirmək və möhkəmləndirməklə şərtlənir. Əmək səyləri həm də məhdud dərəcədə olsa da, uşaqlara tərbiyəvi təsir göstərir. O, uşaqlarda əmək vərdişləri, əmək iradəsi, fiziki zəifliyi aradan qaldırmaq bacarığı formalaşdırır. Beləliklə, əmək funksiyaları adamlarda, zəhmətkeş insan olmaq psixologiyasını formalaşdırmağa xidmət edir. Əmək tərbiyəsinin düzgün aparılması əməyə psixoloji hazırlıqdan çox asılıdır. Belə ki, psixoloji hazırlıq şüura, fəallığa, yaradıcılığa malik olan şəxslərin formalaşmasına böyük təkan verir. Eyni zamanda yüksək vətəndaşlıq keyfiyyətini özündə birləşdirən, hərtərəfli inkişaf etmiş adamın tərbiyə edilməsinə kömək edir.

Əməyə psixoloji hazırlıq özündə bir sıra məsələləri birləşdirir: a) əməyin ictimai və fərdi əhəmiyyətinin nədən ibarət olduğunun dərk olunması; b) əməyin insan həyatı üçün gərəkli olduğuna inamın yaradılması; c) əməyə məhəbbətin yaradılması və inkişaf etdirilməsi; ç) əməyin tərbiyədə oynadığı rolun dərk etdirilməsi; d) şagirdlərin şüurlu surətdə peşə seçməyə istiqamətləndirilməsi. «İnsanın xəmiri zəhmətdən yoğurulmuşdur», –deyən xalq yanılmamışdır. Zəhmət adamları azad əməyi özləri üçün ideal seçmiş və gənc nəsli çalışqan olmağa, əməyi sevməyə çağırmışlar. Xalqın dediyi kimi: «Kotandan yapışan ac qalmaz», «Zəhmət insanı ucaldır». Xalqın yaratdığı incilər əməyin yüksək dəyərini, gücünü göstərməklə bərabər, tənbəl, işsiz, zəhmətsiz həyat tərzini də göstərməyi unutmamışlar. Nağıllarımız, atalar sözlərimiz, lətifələrimiz və s. belə nümunələrlə zəngindir. Məsələn, «Şəms və Qəmər» nağılının bir yerində göstərilir ki, bir quş pərvaz edib bir ağacın başına qondu. Onun dalınca da iki quş gəldi, oldular üç quş. Bu quşlar başladılar ağacın başında yuva tikməyə. Quşların ikisi işləyirdi, ot, çöp və torpaq gətirirdi. Biri isə ağacın başında oturub, öz-özünə oxuyurdu. Quşlar nə qədər eləyirdilər, o, işləmirdi. Axırda quşlar ikisi də onun üstünə düşüb dimdikləri ilə tikə-tikə edib yerə atdılar. Arılar da işləməyənləri pətəklərinə buraxmırlar. Hətta, onları öldürüb kənara atırlar. Demək, zəhmət həm də rahatlıq üçün vacibdir. Qeyd etmək lazımdır ki, düzgün aparılan əmək tərbiyəsi-təlim və peşəyönümü, məktəblilərin ictimai-faydalı, məhsuldar əməkdə bilavasitə iştirakı, təhsilə şüurlu münasibəti, bütün bunlar şagirdlərin vətəndaş kimi yetişməsinin, onların mənəvi, intellektual cəhətdən formalaşmasının, fiziki inkişafının əvəzsiz amilləridir. Məktəbdə əmək tərbiyəsi bir sıra vəzifələri yerinə yetirir: Birinci, şagirdlərin vətən naminə əməyə qoşulması, əmək adamlarına hörmət və məhəbbət hissinin

formalaşdırılması; ikinci, əməyin sosial mahiyyətinin dərk olunması; üçüncü, əməyə yaradıcı münasibətin bəslənilməsi; dördüncü, əmək mədəniyyəti və intizamının formalaşdırılması; beşinci, politexnik biliklərə yiyələnmək, əmək üçün zəruri biliklər əldə etmək və s. Məktəb bu vəzifələrin şagirdlər tərəfindən dərk olunması və əməli fəaliyyətlərində onların nəzərə alınması üçün müxtəlif tədbirlər keçirir. Görkəmli pedaqoq J.J.Russo «əsl insanı» əməkdən kənarda təsəvvür edə bilmirdi. Russoya görə, ən yaxşı təhsilli adam belə fiziki əməyə qabil deyilsə, natamam şəxsiyyətdir. Uşağı hansı əmək növlərinə hazırlamaq məsələsinə gəldikdə o, birinci yerə kənd təsərrüfatı əməyini qoyurdu. Uşağa bir neçə sənət öyrətməyi zəruri hesab edirdi. İsveçrə pedaqoqu İ.H.Pestalotsinin fikrincə, yalnız əmək əsasında insanın mənəvi qüvvələrinin və qabiliyyətlərinin inkişafı mümkündür. K.D.Uşinski insanın düzgün inkişafı üçün əməyi zəruri şərt hesab etmişdi. O qeyd edirdi ki, əgər tərbiyə insanı xoşbəxt etmək istəyirsə, onu xoşbəxtlik üçün tərbiyə etməməli, əmək həyatına hazırlamalıdır… Tərbiyə insanda əməyə adəti və məhəbbəti inkişaf etdirməlidir. Məktəbdə şagird əməyinin aşağıdakı növləri vardır: təlim əməyi, məhsuldar əmək, ictimai-faydalı əmək, özünəxidmət əməyi. ***Təlim əməyi.*** Əmək təlimi şagirdlərdə mühüm vərdişlər yaradır, həyat üçün lazımlı fəaliyyət sahəsinin müəyyən edilməsinə kömək edir. O, mənəvi hazırlıq anlayışını möhkəmləndirir və zənginləşdirir. Təlim əməyi şagirdlərin psixoloji və mənəvi hazırlığının əsasında dayanır. Təlim əməyi zamanı şagirdlər dərk edirlər ki, insanı ucaldan və yaşadan əməkdir. Təlim əməyi şagirdlərdə yüksək şən əhval-ruhiyyə yaradır, onları həyata hazırlayır, foprmalaşdırır. Məktəbdə əmək dərsləri şagirdləri biliklərlə silahlandırmaqla bərabər, onlarda əməyə məhəbbət hissi yaradır. Şagirdlərin əməyə hazırlığında ***məişət əməyinin*** (özünəxidmət əməyi də deyilir) də böyük rolu vardır. Şagirdlərdə əmək təlimlə bitmir, ailədə də o, müəyyən məzmunda həyata keçirilir. Özünəxidmət əməyi uşaqların valideynlərə köməyi kimi qiymətləndirilir. Uşağın yerini yığıb qaydaya salması, qabları yuması, evi təmizləməsi, pal-paltarı yığışdırması özünəxidmət əməyi hesab olunur. Bəzən şagirdlər «dərslərimə hazırlaşıram» deməklə əməyin bu növündən yaxa qurtarmağa çalışırlar. Valideynlər isə asanlıqla bu vəziyyətlə razılaşırlar. Halbuki, şagirdlər özünəxidmət əməyində iştirak edərək böyüklərin əməyini qiymətləndirməyi bacarırlar. Uşaqların fəaliyyətini düzgün müəyyənləşdirmək üçün ailədə bəzən gün rejimi tərtib edirlər. Məktəbdə də şagirdlər özünəxidmət əməyi ilə məşğul ola bilərlər. Laboratoriya və ya kabinetlərdə işlədiyi yeri qaydaya salmaq, cihazları hazırlamaq,

sinif otağında stolunu qaydaya qoymaq, sinif otağının havasını dəyişmək və s. bu qəbildəndilər.

Əməyin növlərindən biri də ***məhsuldar əməkdir.*** Bu, maddi sərvətlər yaradılmasına yönəldilən və haqqı ödənilən əməkdir. Məhsuldar əmək bilavasitə maddi nemətlər istehsalı ilə bağlıdır. Şagirdlərin məktəbyanı sahədə məhsul yetişdirmələri, ümumxalq iməciliklərində fəal iştirak etmələri, xalqın rifahı üçün maddi sərvətlər yaradılmasına çalışmaları, zəhmət adamlarına hörmət hissi bəsləmələri əməyin bu növü ilə bağlıdır.

Şagirdlərin ***iqtisadi tərbiyəsi*** elmi dünyagörüşün mühüm tərkib hissəsidir. İqtisadi tərbiyə şagirdlərdə iqtisadi şüuru formalaşdırmağa xidmət edir. O, gəncləri faydalı əməyə hazırlayır. İndi iqtisadi tərbiyə bazar iqtisadiyyatının inkişafını, istehsalın səmərəliliyini yüksəltməyi, idarəçilik sistemini və yeni təsərrüfatçılıq metodlarının əsas qanunlarını şagirdlərə aşılamağı nəzərdə tutur. İqtisadi tərbiyə iqtisadi fikrin inkişafını, işgüzar keyfiyyətin formalaşdırılmasını *təmsil* edir. İqtisadi tərbiyənin məqsədi adamlara təsərrüfatçı şüuru aşılamaqdır, əməyə iqtisadçı münasibəti bəsləməkdir.

Cəmiyyətimizin başlıca vəzifələrindən biri olan vətəndaşların iqtisadi tərbiyəsinin forma və məzmunca zənginləşdirilməsi dövrün çox mühüm tələbidir. Bunlar onu göstərir ki, insan iqtisadi təhsilə yiyələnmədən quruculuğun fəal və şüurlu iştirakçısı ola bilməz. Bununla əlaqədar şagirdlərin iqtisadi təhsilinə və tərbiyəsinə mühüm diqqət yetirilməlidir. İqtisadi təhsil şagirdlər tərəfindən dərk edilmiş və qəbul olunmuş iqtisadi fəaliyyət prinsiplərini və normalarını, onların tələblərinin həyata keçirilməsi yollarını göstərir.

Şagirdlərin peşə seçməyə hazırlanmasında özünə status almış formalardan biri iqtisadi tərbiyə ilə bağlıdır. İqtisadi tərbiyə xalqın milli psixologiyası, əhalinin məşğülluğunun coğrafiyası və ona məxsus statistika, iqtisadiyyatın ixtisaslaşdırılması və onun texniki təchizatı ilə, habelə sosial mühitlə bağlı olan əlaqələri özündə birləşdirir.

Ümumtəhsil məktəblərində şagirdlərin iqtisadi tərbiyəsi həm təlim prosesində, həm də dərsdənkənar tədbirlər formasında həyata keçirilir. Məsələn, o bütün əsas fənlərin: riyaziyyat, biologiya, fizika və b. tədrisində tətbiq olunur. Riyaziyyatdan «kiçikdir və böyükdür», «faiz» və s. mövzuları tədris edərkən iş adamlarının, ailə büdcəsinin xərclənmə imkanlarından istifadə edilir. Bu fənn həmçinin uşaqlarda

yeyinti məhsullarından qənaətlə istifadə etmək bacırığı formalaşdırır, lazım gəldikdə müvafiq statistik hesablamalar aparmaqda, konkret göstəricilərə əməl etməkdə, iqtisadi formullara müraciət etməyi və düşdükləri çətinlikdən səmərəli çıxış yolunu tapmağı öyrənməkdə mühüm rol oynayır. Məktəblilərin iqtisadi təfəkkürünü həyatın bugunkü tələbləri səviyyəsində formalaşdırmaq onların məhsuldar əməyinin mühüm mərhələsidir. İqtisadi anlamlı təfəkkürü formalaşan adam öz həyatını nizama salmağı bacarır, müasir əmək alətlərindən baş çıxarır. Güzəranının yaxşılaşması yolunu əməkdə axtarır. Atalar yaxşı demişdir: «İşləməyən dişləməz», «Nə əkərsən onu biçərsən», «Çox işləyən çox yeyər».

Ədəbiyyat

1. Pedaqogikanın əsasları Bakı-2005. – Məcid İsmixanov
2. Pedaqogika “Maarif”, Bakı-1996. – N.Kazımov, Ə.Həşimov

3 Pedaqogika “Maarif”, Bakı-2006- A.Eminov, İ.İsayev

4. Pedaqogika “Renesans” Bakı -2000- A.Abbasov, H.Əlizadə

Mövzu 9. **Estetik tərbiyənin mahiyyəti**

Plan:

1. Estetik tərbiyənin mahiyyəti, nəzəri psixoloji əsasları
2. Estetik tərbiyənin prinsipləri
3. Estetik tərbiyənin sistemi yolları və vasitələri

Estetika bir elm kimi tərbiyədə, ictimai həyatda və insan fəaliyyətində hadisələrin inkişafının estetik mahiyyət və qanunauyğunluğunu öyrənir. «Estetika» yunan «estezis» (*duyulan, hiss edilən, qavranılan*) sözündən götürülmüşdür. Estetikanın tarixi qədimdir. Onun kökləri çox qədim keçmişə uzanır. Müəyyən bir elmin adı kimi bu sözü ilk dəfə alman incəsənət nəzəriyyəçisi ***Aleksandr Qotlub Baumqarten*** (1714-1762) özünün 1750-ci ildə nəşr etdirdiyi «Estetika» əsərində işlətmişdir. O, vaxtdan estetika elmin bir sahəsi adlandırılmışdır. Cəmiyyətin inkişafı ilə bağlı onun da məzmun və istiqaməti dəyişmişdir. Xalq incilərində bu tərbiyə özünə xüsusi

səhifələr ayırmışdır. Xalq demişdir: «Gözəllik ondur, doqquzu dondur», «Gözəllik insanın bəzəyidir».

Estetika insan mənəviyyatını ülviləşdirir və əxlaqi şüurun inkişafına güclü təsir edir. İnsanın estetik şüurunun ən mühüm ünsürü bədii-estetik qavramadır. Qavrama incəsənətlə və həyatın gözəlliyi ilə ünsiyyətin, dünyaya estetik münasibətin psixoloji əsasıdır. Estetik təsirlərin qüvvə və dərinliyi bədii estetik ideal və zövqlərin formalaşdırılmasından asılıdır. Bədii estetik duyğu insanın estetik hissiyyatını oyadan hadisələrdə gerçəkliyə çevrilir. Bunun əsasında bədii estetik hadisələrin tam öyrənilməsi və mənimsənilməsi həyata keçirilir. Estetik qavrama mədəniyyəti estetik hissiyyatın inkişafına kömək edir.

Estetik hiss insanın gerçək estetik hadisələrə və ya incəsənətə dəyərli münasibətindən doğan subyektiv həyəcanlı vəziyyətdir. Estetik hadisənin ideya-dərketmə vəziyyətindən törəyən estetik hiss estetik təəssürat (*duyğu*) doğurur. Estetik təəssürat mənəvi estetik tələblərin meydana çıxmasına və inkişafına kömək edir.

Estetik şüura estetik ideyalar, nəzəriyyələr, görüşlər, insanlar tərəfindən dərk olunan gerçəkliyə və incəsənətə estetik münasibətlər daxildir. Estetik şüurun mərkəzi halqası təbiətdə, cəmiyyətdə, insanda və incəsənət sahəsində nöqsansız gözəllik barədə təsəvvür edilən estetik idealdır.

Estetik şüur estetik hisslə vəhdətdə əsərləri, şeyləri, hadisələri, gerçəkliyi və sənəti, bədii estetik ideal nöqteyi-nəzərdən qiymətləndirmək qabiliyyəti olan estetik zövq doğurur. Bədii estetik zövq əsl gözəlliyi və çirkinliyi, tragikliyi və komikliyi görmək və dərindən hiss etməyi bacarmaqdır. Bunun əsasında estetik mühakimə qabiliyyəti inkişaf edir. İnsanın estetik şüuru onun bilavasitə sosial gözəlliklə, təbiətlə, incəsənətlə ünsiyyətdə, habelə fəal yaradıcılıq fəaliyyətində formalaşır.

Estetik tərbiyənin məzmunu, vəzifələri və sistemi. Estetik tərbiyə həyatda və incəsənətdə gözəlliyi, məzəliliyi, eybəcərliyi qavramaq, hiss etmək, qiymətləndirmək, «gözəllik qanunu ilə» yaşamaq və yaratmaq qabiliyyətli, yaradıcı, fəal şəxsiyyət formalaşdırmağın məqsədyönlü prosesidir. Estetik tərbiyə uşağın estetik inkişafını da nəzərdə tutur. Estetik tərbiyə və uşağın inkişafı estetik tərbiyənin sisteminin köməyi ilə həyata keçirilir. Onun özəyini incəsənət vasitələri ilə təsir təşkil edir. Bunun əsasında məktəblilərin bədii tərbiyəsi, təhsili və inkişafı həyata keçirilir. Estetik zövq gözəlliyi qiymətləndirmək bacarığıdır.

Məktəblərdə estetik tərbiyənin mahiyyət və məzmunu barədə anlayışa malik olmaq üçün qarşıda duran vəzifələri bilmək lazımdır. Bu vəzifələr aşağıdakılardır: 1) şagirdlərdə estetik hisslərin yaradılmasına kömək etmək, onlarda həyata, estetik münasibət formalaşdırmaq; 2) uşaqlarda gözəlliklərin qavranılması və başa düşülməsi ilə yaranan estetik hissi, bədii zövqü, mühakiməni və görüşləri bərqərar etdirmək; 3) məktəblilərdə şəxsi və ictimai həyata gözəlliyi şüurlu surətdə daxil etmək bacarıq və vərdişlərini tərbiyə etmək; 4) uşaqlarda fərdi və kollektiv bədii yaradıcılıq qabiliyyətini inkişaf etdirmək.

Estetik tərbiyə sisteminin təşkilinin mühüm prinsiplərindən biri də onun uşaqların yaş, psixoloji-pedaqoji xüsusiyyətləri əsasında qurulmasıdır.Estetik tərbiyə sistemində əmək də mühüm rol oynayır. Belə ki, radikal iqtisadi islahatlar şəraitində adamların getdikcə yüksələn estetik tələbləri və zövqlərini nəzərə almamaq qeyri-mümkündür. Estetik tələblərə cavab verməyən əşyalara fəal münasibət duyulmur. Müasir Qərb pedaqoji ədəbiyyatında estetik tərbiyənin bir sıra konsepsiyaları geniş yayılmışdır. Onlardan biri incəsənət sahəsində uşaqların formal abstrakt (*mücərrəd*) təlim edilməsidir. O, rəssamlıqda yayılmış abstraksionizmin müxtəlif istiqamətləri və syurealizmlə (XX *əsr burjua ədəbiyyatı və incəsənətində ifrat formalizm cərəyanlarından birinin adıdır*) sıx bağlıdır. Onlar dünyanı olduğu kimi təsvir və tərənnüm etməyi rədd edirlər. Konsepsiyalardan biri də öz-özünə meydana gələn bədii-estetik təzahür ideyasıdır. Bu ideya uşaqların azad tərbiyəsi nəzəriyyəsi ilə sıx bağlıdır. Bu cərəyanın tərəfdarları (*H.Rid, U.Louenfeld*) uşaqların məqsədyönlü və sistemli estetik tərbiyəsini rədd edirlər. Məktəbdə estetik tərbiyə birinci növbədə dərsdə ayrı-ayrı fənlərin tədrisi prosesində və sinifdənkənar vaxtlarda həyata keçirilir. Bu prosesdə coğrafiya, riyaziyyat, insan və cəmiyyət, tarix, biologiya, bədən tərbiyəsi fənlərinin əvəzsiz rolu vardır. Bunlar sırasında ədəbiyyat, musiqi, təsviri incəsənət fənlərini xüsusi qeyd etmək olar. Bu fənlər məktəblilərin hərtərəfli inkişafında və əxlaqi-estetik tərbiyəsində mühüm rol oynayırlar. Estetik tərbiyənin qiymətli vasitələrindən olan musiqi insanda nəcib, səmimi duyğular yaradır. Musiqi dərslərində uşaqlara gözəl hisslər aşılanır, onları mənəvi cəhətdən yüksəldir, şirin xəyallara aparır. Böyük Nizami demişdir ki, musiqi ictimai-tərbiyə xarakteri daşımalı, öz ahəngi ilə insan qəlbinin tellərinə toxunmalı, insanda nəcib duyğular oyatmalıdır. Musiqi mədəniyyət deməkdir. O, insanın dərin hiss və düşüncələrini, vətənə sədaqətlə xidmət etməyin yüksək ideyalarını ifadə edir və musiqinin sözlə oxunan digər

böyük janrlarını (*düyet, vokal-suita, aratoriya, opera və s. janrları*) asanlıqla qavramaq işində məktəblilərə böyük kömək göstərir. Şagirdlərdə musiqiyə coşqun həvəs oyatmaq və onlara dərin estetik zövq aşılamaq musiqi dərsinin maraqlı və müvəffəqiyyətli tədrisindən çox asılıdır. Yunan filosofu Platon sağlamlığı insan həyatı üçün böyük nemət hesab edirdi. O, yazırdı ki, insanı məhv edən səbəblərdən biri onun fiziki hərəkətsizliyidir. Şərq dünyasının tanınmış alimi İbn Sina sağlamlıq üçün fiziki hərəkətlərin yerinə yetirilməsini vacib saymışdı. Nizami yaradıcılığına bələd olduqca «Xəmsə» kimi dəyərli əsərin hər misrasında fiziki tərbiyənin elementlərinə rast gəlmək olur. O, «Xosrov və Şirin» poemasında on yaşa çatmış Xosrovun özündən yaşlıları heyran qoyduğunu, qılıncı ilə şücaətlər qazandığını, şirləri gücü ilə yerə sərməsini və s. təsvir etməklə əslində qoçaqlığın, güclülüyün, gümrahlığın ona gətirdiyi şöhrəti əks etdirmiş Estetik tərbiyə məişətimizin bütün sahələrinə daxil olmuşdur. Lakin bu gözəlliyin dərk olunmasına və ya qorunub saxlanılmasına münasibət eyni olmamışdır. Məktəb yenicə təmirdən çıxmışdır, təmizdir, səliqəlidir, gözəl partalara, zəngin laboratoriyalara malikdir. Bu gözəllik və zənginliyin qorunub saxlanılması vacib məsələ olmalıdır. Y.A.Komenski haqlı olaraq yazırdı ki, məktəb içəridən və bayırdan gözləri cəlb edəcək xoş bir yer olmalıdır.

Məktəbin gözəlliyini diqqətə çatdıran onun təmiz, səliqəli məktəbli geyimli şagirdləridir. Məktəblinin geyimi onun mənəvi dünyasına, nəcib hərəkətlərinə uyğun gəlməlidir. Məktəbli geyimi şagirdləri fikirsiz dünyaya aparır, onları sıxıntılı və narahat hisslərdən uzaqlaşdırır. Bu sadə təmiz məktəbli geyimi özü elə gözəllik deməkdir. Məktəblinin danışığı, hərəkəti də, başqalarına münasibəti də gözəl olmalıdır.

Ədəbiyyat

1. Pedaqogikanın əsasları Bakı-2005. – Məcid İsmixanov
2. Pedaqogika “Maarif”, Bakı-1996. – N.Kazımov, Ə.Həşimov
3 Pedaqogika “Maarif”, Bakı-2006- A.Eminov, İ.İsayev
4. Pedaqogika “Renesans” Bakı -2000- A.Abbasov, H.Əlizadə

Mövzu 10. Məktəbdə fiziki tərbiyənin əhəmiyyəti

Plan:

1. Fiziki tərbiyənin əhəmiyyəti
2. Fiziki tərbiyənin məzmunu və vəzifələri
3. Fiziki tərbiyənin vasitə və yolları

İnsan həyatında sağlamlıq, fiziki kamillik, mənəvi zənginlik zəruri amildir. Tarix boyu insan sağlamlığı yaşayışı üçün vacib və əsas şərt hesab edilmişdir. Xalqın yaratdığı tarixi abidələr – «Kitabi-Dədə Qorqud» eposu, «Koroğlu», «Qaçaq Nəbi» dastanları və s. sağlamlıq, kamillik, mənəvi zənginlikdən xəbər vermiş, böyüyən nəslin gümrah və sağlam böyüməsi üçün tərbiyə xəzinəsinə çevrilmişdir.

Yunan filosofu Platon sağlamlığı insan həyatı üçün böyük nemət hesab edirdi. O, yazırdı ki, insanı məhv edən səbəblərdən biri onun fiziki hərəkətsizliyidir. Şərq dünyasının tanınmış alimi İbn Sina sağlamlıq üçün fiziki hərəkətlərin yerinə yetirilməsini vacib saymışdı. Azərbaycan xalqı tarixən at çapmaq, qılınc oynatmaq, qurşaq tutmaq və s. idman oyunları ilə məşğul olmuşdur. Bu ənənəvi və milli xüsusiyyətlər xalqın yaddaşında qalması üçün cildlərlə əsərlərin daxilinə hopdurulmuşdur. Görkəmli yazıçı Y.V. Çəmənzəminlinin yaradıcılığında elin, obanın adət-ənənələri maraqla qələmə alınmışdır. O, «Qoç» qəbiləsinə məxsus ailə qurmaq mərasimini təsvir edərkən «Quzğun» qəbiləsinin adətləri ilə onu yaxınlaşdırır. «Qoç» qəbiləsindən qız alan «Quzğun» qəbiləsinin oğlanları aldığı qızla güləşərlər. Əgər oğlan qızı yıxarsa və sağ əlini qızın başına çəkərsə, «həyatının sonuna qədər mənə tabesən» deyərmiş. Əgər qız oğlanın sağ əlindən öpərsə, «qüvvətini təqdir edirəm» fikrini bildirərmiş. Bundan sonra qız oğlana yeddi tapmaca söylər və tapmacaların cavabını ondan tələb edərdi. Oğlan tapmacaların cavabını verdikdə qız sağ əlini oğlanın sağ əlinin üstünə qoyar, «sənə bağlanmaq istəyirəm», – deyərdi. Əgər «sənə bağlanıram» cavabını verərsə, şura rəisi onların əlini göy otla bağlarmış. Y.V.Çəmənzəminliyə görə, sağlamlıq yaşayış üçün əsas şərtdir. Fikrimizi aydınlaşdırmaq üçün bir nümunəyə nəzər salaq.

Y.V.Çəmənzəminlinin «Qızlar bulağı» əsərində qəbilələr arasında adət-ənənələr, onların bir-birinə münasibəti və s. çox maraqla təsvir olunmuşdur. «Xoruz» qəbiləsi

adətinə görə, gənclər evlənmək istədikdə həkim müayinə edir və ailə qura biləcəyinə icazə verirmiş. Bu gənclər sonra «Qoç» qəbiləsinə qız almağa gedirmişlər. Gənclərdən biri xəstəlik keçirdiyinə görə zəif idi. Ona görə «Qoç» qəbiləsinə getməyə icazə verilmir. Sağlam, qüvvətli, əzələləri möhkəm gənclər sıraya düzülür. Onları qaçırdıb nəbzini yoxlayırlar. Həkim hamının sağlamlığından razı qalır. Zəif oğlan məyus halda dayanıb gənclərə tamaşa edirdi. Həkim ona yanaşıb nəbzinə, dilinə baxır. Fiziki tərbiyə insanın sağlamlığını möhkəmləndirən, orqanizmin normal inkişafına kömək edən ictimai fəaliyyətdir. Fiziki inkişafın sağlamlığa əsaslandığını göstərən xalq «Sağlıq-ən böyük varlıqdır», – deyir və yaxud «Neynirəm o qızıl teşti ki, içinə qan qusam».

İngilis pedaqoqu C. Lokk fiziki tərbiyəyə böyük qiymət verir və «sağlam bədəndə sağlam ruh olar» deyirdi. Sağlamlıq həm işimiz, həm də salamatlığımız üçündür, deyən pedaqoq uşağı aşağı yaşından möhkəmləndirməyi tövsiyə edirdi.

Fiziki tərbiyə şəxsiyyətin ahəngdar inkişafına öz payını verir. Tərbiyənin digər tərkib hissələri kimi, fiziki tərbiyə də şagirdlərin dünyagörüşünün formalaşmasına kömək edir. Tərbiyənin tərkib hissələri bir-biri ilə bağlıdır. Məsələn, müvafiq fiziki inkişaf, sağlamlıq olmasa əqli inkişafa nail olmaq mümkün deyil. Əmək fiziki inkişafla bağlıdır. Fiziki tərbiyə şagirdlərin əxlaqca saflığına böyük köməklik göstərir. Fiziki tərbiyənin aşağıdakı vasitələri vardır: təbii, gigiyenik amillər və fiziki təmrinlər.

Təbii amillərdən məktəb yaşlı uşaqların fiziki tərbiyəsində geniş istifadə edilir. Təbii amillərə hava, su, günəş şüaları daxildir. Saf su insan sağlamlığı üçün əsas şərtdir. Günəş və su vannaları qəbul etmək, təmiz havada olmaq orqanizmə yaxşı təsir edir, əzələlərin tonusunu artırır, tənəffüsü yaxşılaşdırır və s.

Məktəblilərin fiziki tərbiyəsində ***gigiyenik amillərin*** də rolu böyükdür. Belə ki, normal yuxu, istirahət, rejim, keyfiyyətli qida, şəraitli mənzil, iş yeri, əlverişli geyim gigiyenik amillər sırasına daxildir və bunlar sağlam orqanizm, normal inkişaf və formalaşmaq üçün vacib amillərdəndir. Şagird mühitinin düzgün gigiyenik təşkili onların fiziki inkişafına müsbət təsir göstərir. Şagirdlərin təmiz və səliqəli, günəş şüaları ilə təmin olunmuş siniflərdə dərs keçmələri onlarda gigiyenik mədəniyyət yaradır, gigiyenik biliklər aşılayır.

Fiziki ***təmrin*** dedikdə fiziki tərbiyənin vəzifələrinə uyğun təşkil edilən və həyata keçirilən hərəki əməliyyatlar başa düşülür. Buraya, yarış, tullanmaq, dırmanmaq,

qaçış, üzmək və s. daxildir. Bu qeyd olunanlar pedaqoji ədəbiyyatlarda gimnastika, oyunlar, turizm və idman sahələri daxilində izah edilir.

Gimnastika yunanca «*gymnastik*, *gymnazo*» məşq edirəm, hərəkət edirəm deməkdir. O, insanın hərtərəfli, ahəngdar fiziki inkişafına və sağlamlığının möhkəmləndirilməsinə xidmət edən güc, çeviklik, dözümlülüyünü artıran fiziki hərəkətlər sistemidir.

Gimnastikanın müxtəlif növlərini fərqləndirirlər: ***əsas gimnastika, köməkçi gimnastika, idman gimnastikası***. Əsas gimnastikaya gigiyenik gimnastika da daxildir. Əsas gimnastika ümumi fiziki inkişafa, gündəlik fəaliyyətdə lazım olan başlıca vərdişlərin təkmilləşməsinə kömək edir. Məktəblilərin, həmçinin ümumi fiziki hazırlığı çatışmayan uşaqların fiziki tərbiyəsində mühüm vasitə olan əsas gimnastikada mürəkkəb olmayan sərbəst hərəkətlər, mütəhərrik oyunlar, tullanmalar tətbiq edilir. Fərdi və qrup məşğələləri formasında keçirilən gigiyena gimnastikası sağlamlıq məqsədi güdür. Gimnastikanın ən geniş yayılmış növü səhər gimnastikasıdır. Məktəblilərin fiziki tərbiyəsində turizm də böyük rol oynayır. Turizm-fransızca gəzinti, səfər sözündəndir. Məktəblərimizdə turizm – ekskursiyalar, yürüşlər, gəzintilər, səfərlər şəklində təşkil edilir. Turizm-ekskursiyalar hər bir məktəbin həyatına möhkəm daxil olmuş, müxtəlif mühüm pedaqoji məsələlərin həllində müəllimlərin istifadə etdikləri mühüm vasitələrdən birinə çevrilmişdir. Turizm şagirdlərin fiziki hazırlığının təmin olunmasında ən mühüm amildir. Turizm-ekskursiya və yürüşlərdə iştirak edən şagirdlərin dünyagörüşü genişlənir, estetik zövqləri formalaşır. Turizm zamanı şagirdlərdə kollektivçilik hissinin möhkəmlənməsi daha asan başa gəlir. Uzun müddət tələb edən turizm səyahətləri zamanı kollektiv həyat tərzinin ilkin elementləri əldə edilir. Yerin seçilməsi, çadırın qurulması, yeməyin hazırlanması və s. bağlı xüsusi qruplar yaradılır. Fəaliyyət formalarından asılı olmayaraq ümumi məqsədə yiyələnmək üçün onlar əlbir işləməyə uyğunlaşırlar.

Turizm idman bacarığı və vərdişlərinin möhkəmləndirilməsi ilə çox bağlıdır. Turizm zamanı şagirdlərdə çeviklik, cəsarətlilik, dözümlülük kimi keyfiyyətlər, tullanmaq, dırmanmaq, üzmək və s. bacarıq və vərdişlər formalaşdırılır.

Məktəbdə fiziki tərbiyənin təşkili formalarına bədən tərbiyəsi dərsi, fakultativ məşğələlər, gün rejiminə əsaslanan idman sağlamlıq işləri, o cümlədən fiziki tərbiyə üzrə sinifdənxaric tədbirlər daxildir.

Bu formalardan ən əsası bədən tərbiyəsi dərsləridir. Bədən tərbiyəsi dərslərinin mühüm xüsusiyyətlərindən biri gələcək vətəndaşın daha sağlam böyüməsini, fiziki cəhətdən kamil inkişafını təmin etməkdir. Bədən tərbiyəsi də başqa fənlər kimi cədvəl üzrə keçilir, məcburi məşğələ olduğu üçün bütün şagirdlər iştirak edir. O, tədris proqramına əsaslanır, müəllimin rəhbərliyi altında həyata keçirilir.

Fakultativ məşğələlər də fiziki tərbiyənin təşkili formalarından biridir. Bu məşğələlərdə idmanı sevən şagirdlər könüllü olaraq iştirak edirlər. Fakultativ məşğələlər də cədvəl üzrə keçirilir. Bununla birlikdə, yaz aylarında vaxtın dəyişməsindən asılı olaraq məktəbdə birinci dərsə başlamazdan əvvəl səhər gimnastikası ilə məşğul olurlar. Bununla birlikdə, şagirdlərin qabiliyyətlərinə uyğun tennis dərnəyi, yüngül atletika dərnəyi, gənc voleybolçular və ya gənc idmançılar dərnəyi və s. dərsdən sonra şagirdlərin fiziki tərbiyəsinin səmərəliliyini artırır.

Bədən tərbiyəsi dərslərinin düzgün istiqamətləndirilməsi, sinifdənxaric və məktəbdənkənar tədbirlərdə fiziki və mənəvi tərbiyənin düzgün aşılanması təkcə fiziki hazırlığı və sağlamlığı yaxşılaşdırmır, eyni zamanda intizamlılıq, əməksevərlik, xeyirxahlıq və s kimi dəyərli əxlaqi keyfiyyətləri də formalaşdırır.

Ədəbiyyat

1. Pedaqogikanın əsasları Bakı-2005. – Məcid İsmixanov
2. Pedaqogika “Maarif”, Bakı-1996. – N.Kazımov, Ə.Həşimov
3. Pedaqogika “Maarif”, Bakı-2006- A.Eminov, İ.İsayev
4. Pedaqogika “Renesans” Bakı -2000- A.Abbasov, H.Əlizadə

Mövzu 11. Ekoloji tərbiyənin həyata keçirilməsi yolları

Plan:

- Ekoloji tərbiyənin məzmunu

- Ekoloji tərbiyənin vəzifələri
- Ekoloji tərbiyənin həyata keçirilməsinin yolları

Ekologiya yunan sözüdür; eko (oikos) – məkan, yurd, loqos təlim, söz deməkdir. XIX əsrin sonlarında bu məfhum biologiya elmində canlı aləmin ətraf mühitlə qarşılıqlı əlaqə mənasını bildirirdi. Sonralar o daha geniş mənada işlədildi. Ekologiya ictimai şüur forması kimi fauna və floranın ümumi inkişafının və qarşılıqlı münasibətlərinin qanunauyğun əlaqələrini öyrənən biologiya elminin bir hissəsidir.

Təbiət aləmi insanın yaşamaq mühitidir. Ona görə də, insan onun bütövlüyünün qorunub saxlanılmasında, təmiz və harmonik olmasında, bioloji təsirin və ahəngdarlığın pozulmasının qarşısının alınmasında maraqlıdır. Bununla yanaşı, insan öz fəal dəyişdirici fəaliyyəti ilə təbii prosesə müdaxilə edir, onları pozur, təbii zənginliklərdən öz maraqları üçün istifadə edir. Bu fəaliyyət nəzarətsiz olduqda, ekoloji qanunauyğunluqlar nəzərə alınmadıqda, təbiətin bioloji tarazlığı pozulduqda insan həyatı təhlükə altına alınar və düzəldilə bilinməyən ziyanlar baş verər.

Təbiət insanlar üçün həm də dərketmə və estetik münasibətlər obyektidir. Onun hadisələri estetik cəhətdən kamildir və insana əsl mənada zövq verir. Onun sirləri anlanıldıqda elmi dünyagörüşün formalaşmasına kömək edir. Bütün bunlar ümumi, icbari, ibtidai ekoloji tərbiyənin aparılmasının zəruriliyini tələb edir. Bu, insanlarda ekoloji mədəniyyətin əsaslarının qoyulmasına zəmin yaradar.

Ekoloji tərbiyə ekoloji biliklərə, heyvanlar və bitkilər aləmində, habelə onların yaşayışında, ümumən ətraf mühitdə baş verənlər barədə faktlar, məlumatlar almağa nail olmaq deməkdir. Estetik hisslər və ekoloji mədəniyyət ekoloji tərbiyənin tərkib hissəsidir. Onlar insanı təbiətə ehtiyatla yanaşmağa, təbii suların, torpağın, atmosferin, meşələrin, sənayenin mənimsənilməsinin mənfi nəticələrinin əvvəlcədən qarşısını almağa yönəldir. Təbiətdən istifadə insandan ekoloji şüur və düşüncəyə malik olmağı tələb edir. Ekoloji düşüncənin tərkibinə insanın təbiəti, ətraf mühiti qorumaq, qanunları pozanlara qarşı fəal mübarizə etmək meylləri də daxildir.

Ekoloji düşüncə çox mühüm funksiyaları həyata keçirir. Onlardan birincisi maarifləndirmə funksiyasıdır. Bu, təbiətin insanın yaşaması üçün əsas vasitə,

estetik kamillik olduğunu əks etdirir və şagirdlərə bunun aşılanması zərurətini yaradır.

İkincisi, inkişafetdiricilik funksiyasıdır. Bu funksiya uşaqlarda ekoloji hadisələri dərk etmək bacarığı formalaşdırmaq prosesində həyata keçirilir. O, bitki və heyvanlar dünyasında olanların əlaqələrini və asılılığını müəyyən edir və onlarla ağıllı, qarşılıqlı münasibətdə olmağı lazım bilir.

Üçüncü, tərbiyəvi funksiyadır. Ekoloji düşüncənin bu funksiyası uşaqlarda təbiətə əxlaqi və estetik münasibət formalaşdırmaqda özünü təzahür etdirir. Həmin funksiya məktəblilərdə təbiəti qoruma fəaliyyətini oyadır. Uşaqlara öz doğma ölkəsinin təbiətinin sirlərini açmaq, dərk etdirmək, onu sevmək hissləri yaradır, vətənpərvərlik ruhunu dərinləşdirir və möhkəmləndirir.

Dördüncü, təşkiledici funksiyadır. Bu funksiyaya şagirdləri təbiəti mühafizə etməyə həvəsləndirmək daxildir. Ekoloji düşüncə şagirdləri sülh uğrunda, insanların salamat qalması uğrunda, atom müharibəsi əleyhinə mübarizəyə cəlb edir.

Beşinci, proqnozlaşdırma funksiyasıdır. Ekoloji düşüncənin bu funksiyasına uşaqlarda təbiətdə insanın bu və ya digər hərəkətinin hansı ekoloji nəticə verəcəyini dərk etmək bacarığını inkişaf etdirmək daxildir. Ekoloji düşüncənin bu funksiyasının səmərəli həyata keçirilməsi məktəblilərdə ekoloji mədəniyyətin formalaşmasını təmin edir.

Şagirdlərin dünyagörüşünün mühüm tərkib hissəsi olan ekoloji düşüncə ekoloji tərbiyə prosesində formalaşır. Ekoloji tərbiyənin qarşısında bir sıra vəzifələr dayanır. Bu vəzifələr aşağıdakılardan ibarətdir:

1. Uşaqları ekoloji biliklərlə silahlandırmaq və onları ekoloji mədəniyyətə yiyələndirmək.

2. Uşaqlarda vətənə, təbiətə, ətraf aləmə, böyüdüyü torpağa məhəbbət hissi aşılamaq.

3. Uşaqlarda təbiətin qayğısına qalmaq, onu olduğu kimi yaşatmaq hissi və meyli formalaşdırmaq.

4. Məktəblilərdə torpağın, təbiətin sahibi hissini yaratmaq.

Ekoloji tərbiyənin qarşısında dayanan vəzifələri sistemli şəkildə təlim prosesində və sinifdənxaric məşğələlər vasitəsilə həyata keçirmək olar.

Ekoloji tərbiyə məqsədyönlü təlim prosesində həyata keçirilir. Şagirdlər müxtəlif fənləri öyrənmək prosesində ekoloji biliklərlə silahlanırlar. Onlarda ekoloji düşüncə və mədəniyyətin formalaşmasında biologiya, coğrafiya, fizika, kimya dərslərinin mühüm əhəmiyyəti vardır. Məsələn, şagirdlər biologiya dərsindən qarışqaların meşələri təmizləyən sanitar, böcəklərin quşlar üçün yem olduğunu, çayların geniş çəmənliklər yaratdığını, meşələrin havanı təmizlədiyini, qarın torpağa nəmlik verdiyini öyrənirlər. Müəllimlər uşaqları inandırır ki, bu əlaqələrin pozulması təbiətdə bioloji tarazlığı dəyişir, ona düzəldilməsi mümkün olmayan ziyan vurur, insanın həyat şəraitini pisləşdirir. Fizika, kimya dərsləri şagirdlərə kompleks politexnik biliklər verir. Belə ki, fizika fənnindən müvafiq mövzuların tədrisi zamanı fiziki hadisələr, fizika və kənd təsərrüfatı, fizika və su elektrik stansiyası, hava, atom elektrik stansiyası, kosmik fəza və s. haqda nümunələrdən istifadə etməklə şagirdlərdə ekoloji tərbiyənin yaradılmasına nail olmaq olar. Belə imkanlar kimya, coğrafiya, tarix ədəbiyyat və s. fənlərin tədrisi zamanı da əldə oluna bilər.

Uşaqlarda ekoloji düşüncələrin formalaşmasında *estetik elmlərin* özlərinə məxsus yerləri vardır. Ekoloji tərbiyə xalqın yaratdığı incilərdə də özünü göstərir. Ulu əcdadların zəngin miras qoyduğu atalar sözləri, bayatılar, laylalar elin dəyərli söz xəzinəsidir. Bu söz sərvəti ailədən geniş mühitə çıxaraq nəsildən-nəslə ötürülür. Elə atalar sözləri vardır ki, orada ağacların bioloji xüsusiyyətləri, ekoloji şərait insan düşüncəsi ilə müqayisə edilir. Məsələn, «Sıldırımın başında ağac olmaz, lovğanın başında ağıl», «Zibil içində yaşamaqdansa gül-çiçək içində ölmək yaxşıdır», «Bədxahın başında nə gül açır, nə çiçək», «Evini təmiz saxla, qəfil qonağın gələr, üstünü təmiz saxla, qəfil ölümün olar» və s. Bütün bunlar insanları təmizliyə, səliqəli olmağa, ətraf mühiti qorumağa, təbiəti dərk etməyə yönəldən dəyərli fikirlərdir.

Dərslərlə bərabər, sinifdənxaric tədbirlərdə də təbiəti mühafizə işinin təşkili ətraf regionun təbii sərvətləri və onun qorunması ilə bağlı sistemləşdirilməlidir. Təbiəti mühafizə ilə bağlı biliklər dərnək məşğələlərində, konfranslarda, gecələrdə daha da dərinləşdirilir. Ekoloji tərbiyəyə aid təşkil edilən gecələrin keçirilməsi, şagirdlərin bu sahə ilə bağlı məruzələrinin hazırlanması və dinlənilməsi, təbiətə

gəzinti və ekskursiyaların keçirilməsi onun sərvətlərinin qorunması hissini gücləndirir.

Məktəbdənkənar tərbiyə müəssisələri də ekoloji tərbiyənin həyata keçirilməsində böyük rol oynayırlar. Şagirdlərin həvəs və maraqlarını yaşadan bu müəssisələrdən «Gənc təbiətçilər stansiyası», «Uşaq turizm bazası», «Gənc, uşaq sarayları» ekoloji tərbiyə işində geniş imkanlara malikdirlər.

Ədəbiyyat

1. Pedaqogikanın əsasları Bakı-2005. – Məcid İsmixanov
2. Pedaqogika “Maarif”, Bakı-1996. – N.Kazımov, Ə.Həşimov
3 Pedaqogika “Maarif”, Bakı-2006- A.Eminov, İ.İsayev
4. Pedaqogika “Renesans” Bakı -2000- A.Abbasov, H.Əlizadə

Mövzu 12. Hüquq tərbiyəsinin mahiyyəti

Plan:

1.Hüquq tərbiyəsinin mahiyyəti

2.Hüquq tərbiyəsinin məzmunu

3. Hüquq tərbiyəsinin metodları

Məktəblilərin vətəndaş tərbiyəsinin əsas tərkib hissələrindən biri də hüquqi tərbiyədir. Demokratik hüquqi dövlət qurmaqda olduğumuz indiki şəraitdə bu daha aktualdır. Ona görə də, indi məktəblərimizdə şagirdlərin qanuna, mədəniyyətə, demokratiyaya, yüksək vətəndaşlıq fəallığına və məsuliyyətinə hörmət ruhunda tərbiyə edilməsinə böyük əhəmiyyət verilir. Hüquq ərəb sözüdür, mənası «haqq söz» deməkdir. Hüquq dövlət tərəfindən müəyyən olunan və tətbiq edilən, insanlar arasında ictimai münasibətləri qaydaya salan və hakim sinfin, insan qrupunun iradəsini ifadə edən normaların, qaydaların cəmini nəzərdə tutur.

Məktəbdə hüquq tərbiyəsinin məqsədi şagirdlərin mövcud hüquq normalarına münasibətlərini formalaşdırmaqdan ibarətdir. Onun məzmununu cəmiyyətin hər hansı bir inkişaf mərhələsində ictimai münasibətlər əsasında qazanılmış bilik, təcrübə, nailiyyətlər, hüquq normaları və mədəniyyət təşkil edir.

Hüquq tərbiyəsinin sistemi hüquqi şüurun strukturu barədə elmi təsəvvürlərlə müəyyən olunur. Onun əsasını hüquqi savad təşkil edir. Bu da, dövlətin hüquqi əsasları, qanun əsasında insanların münasibətlərini nizama salan hüquq normaları ilə ümumi tanışlıqda özünü təzahür etdirir. Lakin adi hüquq normalarını bilmək heç də həmişə düzgün davranışın həlledici motivinə və stimuluna çevrilmir. Yeniyetmələr və gənclər çox vaxt hüquq qaydalarını şüurlu və şüursuz olaraq pozurlar. Hüquqi şüur, adi hüquqi savad, o zaman fəal qüvvəyə çevrilir ki, şüurlu vətəndaşlıq və əxlaqilik tam olaraq bir-birinə qarşılıqlı təsir göstərirlər. Vətəndaş şüurluluğu demokratik cəmiyyətin və onun vətəndaşlarının maraqlarını müdafiə etməyə yönəldilmiş hüquq normalarının mahiyyətini və ictimai əhəmiyyətini başa düşməkdə məktəbliyə kömək edir. Əxlaqi şüur hüquqi normaları dərindən mənimsəməyi, onunla əxlaqi münasibətdə olmağı təmin edir. O, əxlaqi rəftarla qeyri-əxlaqi və hüquq əleyhinə hərəkətlərin hüdudunu görməyə və dərk etməyə imkan verir. Məsələn, məktəb illərində vərdiş olunmuş yalan, kiçik fitnəkarlıq, yoldaşları və kollektivi aldatmaq yaş ötdükcə saxtakarlığa, rüşvətxorluğa, hesabda aldatmağa, oğurluğa, fırıldaqçılığa aparıb çıxarır. Yoldaşına, müəlliminə və valideynlərinə hörmətsizlik hüquq pozuntularına və mənliyini təhqir etməyə aparır. Əməyə başısoyuq, həvəssiz münasibət əmək intizamını və əmək qanunlarını pozmağı törədir. Sərxoşluq cinayət etməyə və hüquq pozğunluğuna səbəb olur. Uyuşdurucu qəbul edəndən tüfeyli həyat sürən törəyir. Həyata əxlaqi münasibət kəsildikdə mütləq hüquq normalarından kənara çəkilmək halları baş verir. O da cinayət, şüurlu və cəmiyyətə zidd əxlaq törədir. Və əksinə, yüksək əxlaqi şüur ictimai dəyərli əxlaqa stimul, hüquq pozuntularından çəkinmək zəmanəti verir.

Hüquqi şüurun ən başlıca ünsürü əxlaqi-hüquqi və siyasi hissdir. Əxlaqi-hüquqi hiss xalqların iradəsinin əlaməti olan qanuna dərin hörmət deməkdir. O, vətənpərvərlik hissi ilə sıx əlaqədardır. İnsanın hüquqi şüurunda vətəndaş vicdanı böyük rol oynayır. O, qanuna riayət etmək davranışının daxili tənzimedicisidir. Vicdan itirildikdə insanda qorxu hissi yaranır. Hüquqi şüur quruluşunun ünsürlərindən biri hüquqi təfəkkürdür. O, hüquqi biliklərə əsaslanır və hüquqi normalara uyğun olaraq insanların fikrini, rəftarını və əxlaqını qiymətləndirmək bacarığıdır. Hüquqi biliklər, hiss və təfəkkürün qarşılıqlı təsiri uşaqda hüquq normalarına riayət etmək, qanunu gözləmək, onların pozulmasına qarşı mübarizə zərurətini əxlaq və iradə əsasında inkişaf etdirməyə kömək edir. Hüquqi şüurun formalaşdırılması şagirddə

hüquqi mədəniyyət tərbiyəsi məqsədini güdür. Şagirdlərdə hüquq mədəniyyətinin formalaşdırılması iki cəhətdən faydalıdır: bir tərəfdən şagirdlərin özləri hüquq normalarına əməl edir, xoşagəlməz hərəkətlərə yol vermirlər, digər tərəfdən isə hüquq normalarını pozanlara qarşı fəal mübarizə aparırlar. Məktəblilərin hüquq tərbiyəsi sisteminin məlum ünsürlərindən biri də, böyüməkdə olan nəslin hüquq tərbiyəsinin məqsədidir. Onlardan birincisi, hüquqi dövlətin vətəndaşını formalaşdırmaqdır; ikincisi, məktəbliləri sosial fəallığa həvəsləndirmək, onları qeyri-əxlaqi təzahürlərə və hüquq pozuntularına qarşı mübarizəyə qoşmaqdır. Şagirdlərin hüquq normalarını dərindən bilmələri və bu normaları şüurlu surətdə dərk etmələri, habelə əməli işdə həmin normalara tam uyğun hərəkət etmələri hüquq təlimi, hüquq tərbiyəsinin və mədəniyyətinin vəhdətdə götürülməsindən çox asılıdır. Şagirdlərin hüquq tərbiyəsi müxtəlif yollarla aparılır. Onlardan biri hüquq təbliğatının müxtəlif şifahi formalarından (hüquq lektoriyaları, gənc hüquq məktəbləri, maraqlı görüşlər və s.) istifadə etməkdir. Bu formalar əsasən şagirdlərlə sinifdənxaric və məktəbdənkənar işlər zamanı həyata keçirilir. Məktəblərimizin maddi-texniki bazası canlı sözlə bərabər, radio, televiziya, kino, mətbuat vasitəsilə də hüquq təbliğatını genişləndirməyə imkan verir.

Kiçik məktəblilər və yeniyetmələr öz «hüquqi təhsillərini» daha mütəşəkkil əxlaqi-hüquqi əsasda davam etdirirlər. Tədris prosesində onlar dövlət haqqında, onun rəmzləri, vətəndaşların hüquq və vəzifələri haqqında ümumi məlumat alırlar. Onların əxlaqi-hüquqi tərbiyəsində Azərbaycan Respublikasının himni, bayrağı, gerbi, milli musiqisi, təsviri incəsənət əsərləri, vətən haqqında mahnılar çox böyük rol oynayır.

Gənclik yaşına girən şagird hüquqi və əxlaqi münasibətlərin mahiyyəti barədə daha geniş məlumatı xüsusi tədris fənləri vasitəsilə dərindən dərk edirlər. Onlar «İnsan və cəmiyyət», «Azərbaycan Konstitusiyası», «Vətəndaşlıq və vətəndaş haqları» fənlərinin tədrisi zamanı hüquqi-əxlaqi tərbiyə qazanırlar. Bu fənlərlə yanaşı, başqa fənlərin, məsələn, tarix, ədəbiyyat, coğrafiya fənlərinin öyrənilməsi prosesində də xeyli hüquqi məlumatlar alırlar və bu da onların hüquqi şüurunun inkişafına və möhkəmlənməsinə kömək edir.

Yuxarı sinif şagirdləri «Xalq təhsili sahəsində qanunların əsasları», məktəbin nizamnaməsi ilə tanış olurlar. Onlar praktiki fəaliyyətdə: şagird özünüidarəsində,

ödənişli əmək fəaliyyətində iştirak etməklə və s. hüquqi tərbiyə alırlar. Oğlan və qızların hüquq tərbiyəsinə detektiv ədəbiyyatın mütaliə edilməsi də çox kömək göstərir.

Şagirdlərin hüquqi şüurunun formalaşmasına mənfi təsir göstərən amillər də vardır ki, bu ilk növbədə sağlam olmayan ailələrdə böyüyən uşaqların mənfi təsirindən irəli gəlir.

Məktəblilərin hüquq tərbiyəsində bir sıra cəhətlərin olmasını nəzərə almaq lazımdır:

hüquq tərbiyəsində şagirdlərin mənsub olduğu millətin adət-ənənəsi və milli xarakterini və koloritini;

hüquq tərbiyəsi zamanı müəyyən kollektivin məlum ənənələr müqabilində formalaşdığı həyati xüsusiyyətləri;

 hüquq tərbiyəsində şagirdlərin yaş xüsusiyyətlərini.

Onu da qeyd edək ki, şagirdlərin hüquq normalarına əməl etmələrində məktəb, ailə, ictimaiyyət və istehsalatın rolu böyükdür. Müəllimlərin hüquqi hazırlıqlarını yüksəltmək üçün onları təkmilləşdirmə institutlarına cəlb etmək lazımdır. Valideynlərin hüquq mədəniyyəti səviyyələrinin yüksəldilməsi həm əmək kollektivlərində, həm də yaşayış yerlərində mühazirələr təşkil etməklə həyata keçirilə bilər. Valideyn universitetləri, gənc valideyn məktəbləri, valideyn klubları bu işdə böyük əhəmiyyətə malikdir. Kütləvi informasiya vasitələrinin köməyi ilə bütövlükdə ictimaiyyətin nümayəndələrini hüquqi biliklərlə silahlandırmaq mümkündür. Əldə edilmiş hüquqi biliklər şagirdlərin hüquqi tərbiyəsinə yönəldilməlidir.

Ədəbiyyat

1. Pedaqogikanın əsasları Bakı-2005. – Məcid İsmixanov
2. Pedaqogika “Maarif”, Bakı-1996. – N.Kazımov, Ə.Həşimov
3 Pedaqogika “Maarif”, Bakı-2006- A.Eminov, İ.İsayev
4. Pedaqogika “Renesans” Bakı -2000- A.Abbasov, H.Əlizadə

Mövzu 13. Kollektiv anlayışı və onun funksiyaları

Plan:

1. Kollektivin təşkili və inkişaf mərhələləri

2. Kollektiv tərbiyə haqqında

3. Məktəb – şagird kollektivində özünü idarənin təşkili

Tərbiyə prosesinin sosial məkanı. Həyatın hər hansı bir hadisəsi də məkanda cərəyan edir və baş verən hər bir hadisənin müvafiq məkanı olur.

Sosial-psixoloji fenomen kimi tərbiyə prosesi də öz məkanı çərçivəsində müəyyən sosiumda (birlikdə, insanı əhatə edən mühit) təşkil edilir, yerləşdirilir və inkişaf etdirilir.

Sosial məkan uşağın hər gün qarşılaşdığı ya söz, hərəkət və insanların rəftarı, ya da cisimlərin, binanın içərisinin, memarlıq ansamblının, nəqliyyatın, aparatların və s. sosial münasibətlərin ölçüsüdür.

Sosial münasibətlərin rəngarəngliyi tarixi ənənələri özündə əks etdirən təcrübədə, maddi dəyərlərdə, incəsənətdə, əxlaqda, elmdə ehtiva olunur. Onlar davranışlarda, geyimdə, mədəniyyət nailiyyətlərində, fərdi yaradıcı əsərlərdə, həyat tərzində özünü göstərən ümumbəşəri mədəni nailiyyətləri, həm də müasir münasibətlərdə əxz edirlər. Bu rəngarənglik real dönüşü də özündə mühafizə edir. Sosial münasibətlərin bütün bu çalarları şəxsiyyət dünyasına daxil olan uşaq üçün sosial situasiya yaradır. O, fərdi xarakter daşıyır.

Sosium cəmiyyətdə və cəmiyyətlə dünya arasında mövcud olan əlaqələr haqda təsəvvür formalaşdırır. Əgər əlaqələr, ənənəvidirsə, onda uşaq gerçəkliyin şəklini (əksini) tez mənimsəyir, çünki onda hələ başqa variant yoxdur. Nə zamansa «mühit tərbiyə edir» deyəndə sosial məkanın ona verdiyi rəngarəng sosial əlaqələr nəzərdə tutulurdu.

Sosiumda sosial varlıq kimi fəaliyyət göstərən uşaq öz «mən»ini üzə çıxarır və təsdiq edir. «Mühit tərbiyə edir» deyimi altında «mən»in ancaq sosial mühitdə meydana gəldiyi başa düşülür. O da aydındır ki, sosial məkan heç vaxt tərbiyə prosesinin subyekti kimi çıxış edə və «məqsəd qoya bilməz». Bu məkanın

cəmləşməsi vasitəsilə (sosium) sosial əhatə formalaşdırma və inkişaf etdirmə təsiri göstərir. Ailə, uşaq bağçası, həyət, məktəb, yaradıcılıq evi, idman bölməsi, klub belə sosial məkan cəmləşməsidir. Onlar növbə ilə şəxsiyyətin fərdi xarakterinin təşəkkülünə təsir göstərirlər.

Ailə məkanı uşaq üçün həlledicidir. O, uşağın tərbiyəsinə ilk təsir göstərir və çox vaxt dəyişilməz qalır. Buna görə də, haqlı olaraq deyirlər ki, uşaq ilk tərbiyəsini ailədə alır.

Məktəb mühiti uşağın şəxsiyyətinin inkişafına böyük imkanlar verir, onun qrupun bərabər hüquqlu üzvü olmasını təmin edir. Bununla məktəb fəaliyyəti nəticəsində uşaq yeni sosial rol əldə edir. Bunu kiçik bir epizodla səciyyələndirək. Uşaq nənəsi ilə «gizlən-tap» oynayır. Nəvə gizlincə nənənin şeyləri harada gizlətdiyinə baxır. Nənə bunu görür, lakin üstünü vurmur, sevimli nəvəsinə bağışlayır. Uşaq məktəbdə «gizlən-tap» oynayarkən evdəki kimi hərəkət edir. Yoldaşları onu oyundan kənarlaşdıraraq deyirlər: «Sən oynamayacaqsan, çünki sən xainlik edirsən». Beləliklə, yeni sosial qrup evin sevimli balasını əyri hərəkətinə görə sərt cəzalandırır.

Qrup dedikdə, tarixən müəyyən cəmiyyət çərçivəsində yaranmış ümumi mənafe, sərvətlər və davranış normalarına malik olan adamların nisbətən sabit məcmusu nəzərdə tutulur.

Yaradıcı sosial qrup (şahmat, idman, diyarşünaslıq, oyun və b.) özünəməxsus təsirə malikdir. Birinci, uşaq bunlara (qruplara) daha çox maraq göstərir, onun tamhüquqlu üzvü olduğuna görə qürrələnir və qrupun qanunlarını sözsüz qəbul edir. İkinci, digər sosial qrupdan fərqli olaraq, uşaq bu qrupun fəaliyyəti vasitəsilə özünün fərdi «mən»ini təsdiq edir. Üçüncü, kifayət qədər yaradıcı fəaliyyət uşağa həyatın yüksək dərəcədə həvəsverici xoşbəxtliyini yaşadır. Məhz buna görə də uşaqlar dərnəklərə, bölmələrə, idman məktəbi və klublara çox həvəslə üz tuturlar.

Beləliklə, sosial məkan müxtəlif sosial qruplarda iştirak etmək istəyən uşaq qarşısında sosial münasibətlərin geniş çalarlarını acmış olur. Müasir mədəniyyət öz elmi-texniki nailiyyətləri ilə uşağın sosial məkanını tamamilə genişləndirmişdir. Hələ dünən öz həyətini, kəndini, rayonunu, şəhərini tanıyan uşaq, indi bütün ölkələrə səfər edir, yeni yerlər, yeni adamlar görür.

Yeni sosial məkanda böyüklərlə kiçiklər arasında da sərhədlər yox olur. Uşaqlar böyüklərin sosial məkanının üzvlərinə çevrilirlər. Artıq uşaqlığın sosial-məkanı geridə qalmış olur.

Cəmiyyətin demokratikləşməsi, münasibətlərin humanistləşməsi, mədəniyyətlərin assimilyasiyası, ölkələrin və birliklərin inteqrasiyası dünənki müxtəlif hadisələrdən (heterogen) ibarət sosial məkandan bu gün vahid (homogen) sosial məkan yaranır. Müxtəlif şəhər və kəndlərin, müxtəlif xalqların uşaqlarından eyni dərəcəli sosial məkan formalaşır.

Peşə sosial məkanı sosial pedaqoji məkana çevirməkdə müəllim böyük rol oynayır. O, bunu çox asanlıqla yarada bilir. Məsələn, müəllim yuxarı sinif şagirdinin bir işin görülməsinə köməklik göstərdiklərini gördükdə: «Nə yaxşı ki, belə qoçaq oğlanlarımız vardır» – deyir.

Beləliklə, tərbiyəni sosial məkanda həyata keçirmək uşağı müasir dünya mədəniyyətinin ən yüksək dəyərlərinə istiqamətləndirmək deməkdir.

Tərbiyə prosesinin sosial məkanının dinamikası. Uşağın sosial həyat meydanı onun böyüməsi və yeni sosial rol alması ilə genişlənir. O, valideynlər üçün övladdır, başqa evdə yaşadığına görə qonşudur, həyətdə oynadıqları uşaqların yoldaşıdır, o, sərnişindir, teatrda tamaşaçıdır, məktəbdə şagirddir, oğlandır (və ya qızdır), o sinif üzrə növbətçidir, o özfəaliyyət dərnəyinin üzvüdür, o idmançıdır və s. Bu rollar ancaq sosial məkanın dəyişməsilə qazanılır. Uşaq «dünənki» sosial məkandan yenisinə, «indiki» sosial məkana daxil olur. Bu da, onun rollarının dəyişməsinə səbəb olur. Sosial məkanın dinamik dəyişməsi ilə böyüməkdə olan uşağın sosial təcrübəsi də zənginləşir. Məhz buna görə də müəllimlər sosial məkan dəyişilmədən müxtəlif fəaliyyətlərlə uşaqların sosial rollarını genişləndirmək gücünə malikdirlər.

Uşaqlar başqa yollarla da - idman məşqinə getməklə, başqa şəhərə və ya kəndə getməklə, öz valideynləri ilə birlikdə bu və ya digər ölkəyə səyahət etməklə sosial məkanlarını genişləndirirlər. Sosial məkanın uşağın şəxsiyyətinin inkişafına təsir ölçüsünü üç şərt müəyyən edir:

Birinci, sosial məkanın qavranılması ya əşya, ya da münasibətlər səviyyəsində baş verə bilər. Əşyalar səviyyəsində qavrama subyektin ancaq biliyini zənginləşdirir. Məsələn, uşaq gəzərək yeni evlər, başqa geyimlər görür, təəccüblü sözlər eşidir,

vərdiş etmədiyi yeməklər yeyir, bütün bunlar onda dünyaya yeni münasibətlər yaratmır. O mənəvi cəhətdən əvvəlki kimi yaşayır. Deməli onda inkişaf yoxdur.

Münasibətlər səviyyəsində qavrama subyektdə inkişaf yaradır. O, gördüklərini dərk etmək üçün daha çox səy göstərir. Bununla onun inkişaf pillələri ilə yüksəlməsi baş verir.

İkinci, sosial məkanın genişlənməsi bilavasitə deyil, dolayı yolla baş verir. Belə ki, texniki vasitələr (televizor, telefon, internet, kino və s.) kitablar, şəkillər, bədii əsərlər, elmi əsərlər, görüşlər vasitəsilə uşaq yeni sosial məkan əldə edir.

Üçüncü, uşağın daxil olduğu yeni sosial məkan onun «Bu nədir? Bu nə üçündür? Bunun nəticəsi necə olacaqdır?» kimi suallara münasibətilə dərk olunur.

Qrupun psixoloji iqlimi. Uşağın sosial məkanda yerləşməsi onun hər hansı bir sosial qrupda olması vasitəsilə ifadə olunur. Məsələn; məktəbli müəyyən sinfin şagirdi olduğundan məktəb sosial məkanına daxildir. Uşaq müəyyən evin sakini olduğu üçün həyat sosial məkanındadır.

Sosial məkan insana qruplar vasitəsilə təsir göstərir. Onun vasitəsilə də sosial birliyə (cəmiyyətə) daxil olur və sosial birliyin bir hissəsini təmsil edir. Psixoloji iqlim qrupun uşağa formalaşdırıcı təsir mexanizmidir. Qrupun (ailə, məktəb, yaradıcı qrup, region, cəmiyyət) sosial-psixoloji iqlimi şəxsiyyətin əhval-ruhiyyəsinə təsir göstərən, onun fəaliyyət istiqamətini, xarakterini və inkişafını müəyyən edən münasibətlər sistemidir.

Sosial-psixoloji iqlim fövqəladə dərəcədə incə bir fe-nomendir. O, bir subyektdən digərinə keçən əlaqələrdir. Psixoloji iqlim əlaqələrin aşkar olduğu anda özünü göstərir və bir subyektdən digərinə keçməsi başa çatana qədər mövcud olur. Cisimlər subyektlərlə əlaqəyə girmədiyindən sosial-psixoloji iqlim yaratmağa qabil deyildir. Qrupun psixoloji iqlimi əlaqələr müsbət olduqda əlverişlidir. Onun əlverişliliyi müsbət əlaqələrin səviyyəsi ilə şərtlənir. Əlverişli sosial-psixoloji iqlimi müəllim yaratmalıdır. O, şəxsiyyətin inkişafı üçün sosial-psixoloji iqlimdə xeyirxahlıq, işgüzarlıq, təhlükəsizlik, təşəbbüskarlıq, nikbinlik əlamətlərinə üstünlük verməlidir. Əlverişli sosial psixoloji iqlimin yaradılmasında ünsiyyət formalarının da böyük rolu vardır. Məsələn: «Salam», «Sabahın xeyir», «Sizi salamlayıram»; «Günün xeyir olsun», «Sağ ol», «Təşəkkür edirəm», «Minnətdaram», «Çox mütəəssirəm»; «İşləməyə başlayaq – başlayaq», «İş

dalınca!», «İş gözləyir»; «Dostlar», «Yoldaşlarım mənim», «Xanımlar», «Cənablar» və s. Məhz belə müraciətlərlə əlverişli sosial-psixoloji iqlim yaratmaq mümkündür.

Qrup uşağa aşağıdakı formada daim təsir göstərir:

1. Qarşılıqlı məlumat mübadiləsi sayəsində qrupun hər bir üzvünün intellektual inkişafına kömək edən şərait yaranır.

2. Qrup ən zəngin emosional gərginlik meydanıdır. Burada fərdlərin emosional hərəkətləri bir-biri ilə çulğalaşır. Bununla subyektlər emosional təcrübə əldə edirlər. Onlarda real gerçəkliyə emosional əks-səda vermək vərdişləri aşılanır.

3. Qrupdakı qarşılıqlı təsir nəticəsində uşaq əxlaqi təcrübə əldə edir. Onun sonrakı həyatı üçün bunun çox böyük əhəmiyyəti vardır.

4. Uşaq qrupda başqalarından fərqləndiyini aşkar edir. O, «mən»ini başqası ilə müqayisə etmək yolu ilə özünü dərk etmiş olur.

5. Qrupdakı iqlim uşağın özünü göstərməsinə imkan verir.

Sosial-psixoloji münasibətlərin təşəkkülündə kollektivin müstəsna əhəmiyyəti vardır. «Kollektiv» latınca «toplanmış» sözündən olub, «adamların birliyi» mənasını daşıyır. Demək, kollektiv üçün səciyyəvi əlamət adi çoxluq deyil, insan birliyidir. Məsələn, küçədə, bazarda, tamaşada, avtobusda və s. yerlərdə çoxlu adamlar olur. Lakin onlar kollektiv ola bilmir. Bu sadəcə, insanlar çoxluğudur, yığınlarıdır, onların təsadüfi toplusudur. Adamlar arasında məsul asılılıq münasibətləri, birgə fəaliyyət yoxdur. Demək, kollektivi səciyyələndirən əlamətlərdən biri də toplanmış adamlar arasında birgə fəaliyyətin və qarşılıqlı məsuliyyət hissinin olmasıdır.

Bəzən müəyyən amal və eyni məqsəd üçün bir qisim adam bir-biri ilə birləşib fəaliyyət göstərirlər. Məsələn, al-verlə məşğul olmaq və ya oğurluq etmək üçün və s. Öz xeyirləri, mənafeləri üçün birləşən bu adamlar kollektiv yox, dəstə adlandırılırlar. Kollektiv yalnız o şərtlə mümkün ola bilir ki, adamları cəmiyyət üçün tamamilə faydalı fəaliyyət vəzifələri əsasında birləşdirir.

Demək, kollektiv üçün səciyyəvi olan əlamətlərdən biri də, birgə fəaliyyətin cəmiyyətin mənafeyinə xidmət edən vəzifələrin ödənilməsinə və xalqın xeyri ilə bağlı konkret ictimai vəzifələrə istiqamətlənməsidir.

Cəmiyyətin tərkib hissəsi olan kollektivin əlamətlərindən biri də, kollektivlərarası əlaqələrin olmasıdır. Onlar ictimai-faydalı əhəmiyyət kəsb edən məqsədlər naminə birləşirlər.

Kollektiv şəxsiyyətlə cəmiyyət arasında körpü rolunu oynayır, onları bir-birinə yaxınlaşdırmaqda vasitəçi rolunda çıxış edir.

Ədəbiyyat

1.Pedaqogikanın əsasları Bakı-2005. – Məcid İsmixanov

2. Pedaqogika “Maarif”, Bakı-1996. – N.Kazımov, Ə.Həşimov

3 Pedaqogika “Maarif”, Bakı-2006- A.Eminov, İ.İsayev

4. Pedaqogika “Renesans” Bakı -2000- A.Abbasov, H.Əlizadə

Mövzu 14. Sinifdən xaric, məktəbdən kənar tərbiyə işi

Plan:

1. Sinif rəhbərinin vəzifələri, işini məzmunu

2. Sinifdən xaric tərbiyə işinin formaları və metodları

3. Məktəbdən kənar işlər

Sinif rəhbəri nümunəvi əxlaqa, idarəetmə qabiliyyətinə, pedaqoji səriştəyə malik, uşaqları sevən fənn müəllimlərindən biri olur. Sinif rəhbərinin fəaliyyətinə nəzər salaq: XX əsrin əvvəllərinədək kişi gimnaziyalarında sinif hamiləri və onların köməkçiləri, qadın gimnaziyalarında isə sinif mürəbbiyəsi və sinif qadın nəzarətçiləri olmuşdur. Onlar gimnazist oğlan və qızların davranışlarına və təliminə, onların siyasi cəhətdən sədaqətliliyinə nəzarət etmək vəzifələrini yerinə yetirirdilər.

Sonralar sovet məktəblərində belə nəzarət vəzifəsi yeni dövrün ictimai-siyasi tələblərinə cavab vermədiyindən ləğv olundu. Məktəblər qarşısında gənclərin siyasi şüurunu inkişaf etdirmək, onlarda yeni dünyagörüşü formalaşdırmaq, şagirdlərlə geniş təşkilatçılıq işi aparmaq tələbi qoyuldu. Buna görə də tezliklə bir sıra müəllimlərdən rəhbərlər təyin olundu. Onlar qrup rəhbərləri adını daşıyırdılar. Qrup rəhbərləri əsasən şagirdlərin davamiyyətinə və təlimin müvəffəqiyyətinə

nəzarət edir, təsərrüfat vəzifələrini həyata keçirirdilər. Tədricən şagirdlərlə dərsdən sonra müəyyən tərbiyə işləri aparmaq zərurəti meydana gəldi. Bununla əlaqədar olaraq siniflərə təhkim olunmuş müəllimlərin funksiyaları dəyişməyə başladı. Bu funksiyalar «İbtidai və orta məktəbdə tədris proqramları və rejim haqqında» (1932) dövlət qərarından sonra daha böyük vüsət aldı. Qrup rəhbərləri 1934-cü ildən sinif rəhbərləri adlandırıldı.

Bu ənənə indi də davam etdirilməkdədir. Hazırda sinif rəhbərləri şagirdlərin əxlaq tərbiyəsində ən başlıca qüvvədir. Sinif rəhbəri şagirdlərin tərbiyəçisi və rəhbəridir. Onun öhdəsinə V sinifdən XI sinfə qədər şagirdlərlə tərbiyə işini təşkil etmək vəzifəsi düşür. O, məktəb direktoru tərəfindən həmin sinifdə dərs deyən daha təcrübəli müəllimlərdən təyin olunur. Sinif rəhbərlərinin vəzifəsi öz sinfində sinifdənkənar tərbiyə işlərini təşkil etməkdən, həmin sinifdə dərs deyən müəllimlərin işini tənzimləməkdən ibarətdir. Sinif rəhbərinin fəaliyyəti Azərbayacan Respublikası Təhsil Nazirinin 5 mart 2009-cu il tarixində (270 sayılı əmri ilə təsdiq edilmiş) “Sinif rəhbəri haqqında əsasnamə”yə uyğun müəyyən edilmişdi. O, fəaliyyətində Azərbaycan Respublikasının Təhsil Qanununu, Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanununu, BMT-nin Uşaq hüquqları Konvensiyasının, məktəbin nümunəvi əsasnaməsini rəhbər tutur.

Sinif rəhbərinin vəzifələri orta ümumtəhsil məktəbinin nizamnaməsində aşağıdakı kimi müəyyən edilmişdir: «sinif rəhbəri sıx birləşmiş şagird kollektivinin yaradılmasını, müəllimlər, tərbiyəçilər və ailə tərəfindən şagirdlərə verilən tələblərin vahidliyini təmin edir, şagird kollektivinə arxalanaraq, onların səyini təlim-tərbiyə vəzifələrinin müvəffəqiyyətlə həll olunmasına yönəldir.

Sinif rəhbəri sinfə aid sənədləri tərtib edir, gündəliklərin və şagirdlərin şəxsi işlərinin vəziyyətinə, sinif jurnalının yazılmasına nəzarət edir. Sinif rəhbərinin əsas fəaliyyət sahələri aşağıdakılardır:

1. Ayrı-ayrı şagirdləri və sinif kollektivini öyrənmək.
2. Şagird kollektivini təşkil etmək.
3. Müəllimlərin tərbiyəvi fəaliyyətini tənzim etmək.
4. Sinifdənkənar tərbiyə işlərini təşkil etmək.
5. Şagirdlərin biliklərə yiyələnməsinə nəzarət etmək.

6. Şagirdlərdə davranış mədəniyyətini tərbiyə etmək.

7. Özünüidarə orqanı ilə əməkdaşlıq etmək.

8. Valideynlərlə iş aparmaq.

Rəhbərlik etdiyi siniflə bağlı olaraq təlim-tərbiyə işini planlaşdırarkən sinif rəhbəri həm tərbiyənin məqsəd və vəzifələrini nəzərə almalı, həm də məktəbin ümumi iş planı ilə hesablaşmalıdır. Təlim-tərbiyə işini planlaşdırarkən sinif rəhbəri bir sıra tələbləri əsas götürməlidir. Bunlar aşağıdakılardır: a) məqsədəuyğunluq; b) optimallıq; c) planın reallığı; ç) konkretlik (icra vaxtı və məsul şəxs dəqiq ifadə olunmalıdır); d) perspektivlik və işdə rejimin təmin edilməsi.

Sinfin iş planı müəyyən ardıcıllıqla qurulmalıdır. Adətən iş planının əvvəlində sinfin ümumi səciyyəsi verilir. Buna çox zaman sinfin pasportu da deyilir. Sonra sinfin fəallarının xarakteristikası verilir və onun qarşısında duran tərbiyəvi tədbirlər qeyd edilir.

«Şagird kollektivi ilə aparılan işlər» də müəyyən bölmə təşkil edir. Burada il ərzində şagirdlərlə aparılacaq tərbiyə işləri planlaşdırılır. Bu zaman məktəb təşkilatçısının iş planına, ona verilən ümumi tələblərə istinad edilməlidir.

Sinif rəhbəri tədbirlər planını hazırlayarkən sinfin bilik və tərbiyə səviyyəsini, maraq və tələbatlarını, psixoloji keyfiyyətlərini və s. nəzərə almalıdır. Qeyd etmək zəruridir ki, bu plan tərbiyənin tərkib hissələrinə müvafiq olaraq hissələrə bölünməlidir. Yəni o, əqli, əxlaq, ideya-siyasi, əmək, estetik, fiziki, hüquqi, iqtisadi, ekoloji tərbiyə baxımından müəyyən edilməlidir. Məsələn, birinci hissədə, əqli tərbiyə üzrə, ikinci hissədə əmək tərbiyəsi və peşəyönümü üzrə və s. tədbirlər planlaşdırılır.

Tədbirlərin təşkili zamanı sinif rəhbəri tərbiyəyə kompleks yanaşma prinsipinin tələblərini əsas götürməli və hər bir tədbirin məzmununu müəyyənləşdirərkən bu prinsipin tələblərindən çıxış etməlidir.

Sinif rəhbərinin şagirdləri öyrənmə yolları. Şagirdlərin fərdi xüsusiyyətlərini, onların həyat şəraitini öyrənmək tərbiyə işində çox mühüm amildir. Bu, birinci növbədə sinif rəhbərinin vəzifəsinə daxildir.

Sinif rəhbərinin işinin müvəffəqiyyəti, səmərəliliyi hər bir şagirdin daxili aləmini, psixologiyasını dərindən bilməkdən də asılıdır. Doğrudan da məktəblilərin fərdi

xüsusiyyətlərini yaxşı bilmədən onları müvəffəqiyyətlə tərbiyə etmək qeyri-mümkündür.

Sinif rəhbəri vahid tərbiyə vəzifələrini müəyyən edir və onları həyata keçirir. Şagirdlərin fərdi xüsusiyyətlərindən asılı olaraq bu vəzifələrin həyata keçirilməsinin vasitə və metodları da müxtəlif ola bilər. Belə ki, bəzilərini tərifləmək, digərlərinə əmr vermək, üçüncüləri davranış qaydalarını pozduqlarına görə cəzalandırmaq lazım gəlir. Deməli, məktəbliləri düzgün tərbiyə etmək üçün onlara fərdi yanaşmağı bacarmaq lazımdır. Fərdi yanaşma isə ancaq şagirdləri dərindən və hərtərəfli öyrənmək əsasında mümkün ola bilər.

Sinif rəhbəri şagirdləri öyrənərkən aşağıdakı tələblərə əməl etməlidir:

1. Öyrənmə tərbiyə və təlimin keyfiyyətinin yüksəldilməsini təmin etməlidir.
2. Öyrənmə planlı və sistematik aparılmalıdır.
3. Öyrənmənin təbiiliyi, həyatiliyi, obyektivliyi təmin edilməlidir.
4. Şagirdlər fəaliyyətdə öyrənilməli və tərbiyə edilməlidir.
5. Öyrənmə zamanı müxtəlif metod və tərzlərdən istifadə edilməlidir.
6. Şagird bütövlükdə və tam öyrənilməlidir.

Adətən öyrənmə prosesində şagirdin ümumi və siyasi inkişafı, onun mənəvi siması, səciyyəvi xüsusiyyətləri, intizamlılığı, təlim əməyi, davranış mədəniyyəti və digər keyfiyyətləri aydınlaşdırılır. Bununla bərabər, məktəblinin həyat və məişət şəraiti ilə tanış olmaq, onun kiminlə dostluq etdiyini, asudə vaxtını necə keçirdiyini, nə ilə məşğul olduğunu aydınlaşdırmaq lazımdır. Şagirdlərin diqqəti, hafizəsi, təfəkkürü və digər psixi proseslərinin xüsusiyyətləri də öyrənilməlidir. Sinif rəhbərinin şagirdləri pedaqoji cəhətdən öyrənməsi üçün təqribi planı olmalıdır. Öyrənmə proqramında aşağıdakı məsələlər əks olunmalıdır;

1. Şagirdlər haqqında ümumi məlumat; familiyası, adı, anadan olduğu il, tarix; şagirdin ev ünvanı; şagirdin valideynləri harada və nə vəzifədə işləyirlər; ailədə qarşılıqlı əlaqələr; ailə tərkibi, onun mədəni səviyyəsi, maddi vəziyyəti; məktəblinin rejimi və asudə vaxtı; ev işlərində iştirakı, dostları, tanışları; məktəblinin həyatında ən vacib hadisələr; səhhəti (məktəb həkiminin məlumatı üzrə).

2. Şagirdin ümumi inkişafı: təlim əməyinə münasibəti; şagirdin mənimsəmə səviyyəsi; fiziki əməyə münasibəti; intizamlılıq səviyyəsi; şagirdin maraq və meylləri.

3. Şagirdin ictimai işi: sinfin işlərində və ictimai həyatında iştirakı; ictimai işin yerinə yetirilməsi xarakteri; sinif kollektivində yeri.

4. Şagird şəxsiyyətinin əsas əlamətləri: ictimai şüuru, dünyagörüşü, ideyalılığı, ideyalarını konkret işlərdə - təlimdə, ictimai işlərdə və əməkdə həyata keçirmək qabiliyyəti; mənəvi keyfiyyətləri – Vətəninə məhəbbət hissi, ölkəmizdəki hadisələrə marağı, öz əməyi ilə məktəbə, cəmiyyətə kömək göstərməyi; xarakterik iradi əlamətləri-məqsədyönlülük, fəallıq, qətiyyətlilik, cəsarətlilik, müstəqillik, təşəbbüskarlıq, mütəşəkkillik, səbirlilik, intizamlılıq və digər fərdi psixi xüsusiyyətləri.

5. Şagirdin öyrənilməsi əsasında sinif rəhbərinin nəzərdə tutduğu pedaqoji tədbirlər: hansı xüsusiyyətləri necə inkişaf etdirmək və təkmilləşdirmək; məktəblinin hərəkətindəki nöqsanları aradan qaldırmaq üçün nə etmək və s.

Aydındır ki, bir sıra məsələlər müəyyən şəraitlə əlaqədar olaraq sinif rəhbərinin proqramına daxil edilməyə də bilər. Deməli, sinif rəhbərinin planı konkret olmalıdır.

Sinif rəhbəri təkcə ayrı-ayrı şagirdləri deyil, bütün sinif kollektivini öyrənməlidir. Deməli, sinif rəhbəri bütün şagird kollektivini öyrənməyi nəzərdə tutan aydın proqrama malik olmalıdır. Şagird kollektivini öyrənmək proqramı təqribən aşağıdakı məsələləri əhatə etməlidir:

1. Sinfin tərkibi: yaş tərkibi; dərketmə səviyyəsi və şagirdlərin inkişafı; iş qabiliyyəti və mənimsəmə dərəcəsi; sinfin ictimai siması:

2. Sinfin həmrəyliyi: işgüzar marağa və mənfi xarakterə görə qruplar varmı; şagirdlər bir-birlərinə necə yanaşırlar; onlar sinfin işlərinə necə münasibət bəsləyirlər; məktəbdə və məktəbdənkənar vaxtlarını bir yerdə keçirməyi, bir yerdə öyrənməyi və bir yerdə oxumağı istəyirlərmi? Oğlan və qızlar dostluq edirlərmi? Kollektiv üzvləri lazım olduqda bir-birini müdafiə edirlərmi?

3. Sinfin mütəşəkkilliyi: burada şagirdlərin kollektiv işləri yerinə yetirmək üçün hazır olması, təhkim olduğu şəxslərin göstərişlərinə əməl etmələri və s. öyrənilir.

4. Sinifdə ictimai rəy: burada şagirdlərin yoldaşlarının işinə necə münasibət bəsləməsi, onu bəyənməsi və ya pisləməsi, narazılıq və razılıqlarını necə ifadə etməsi, danışıqları və işləri arasındakı uyğunsuzluğun olub-olmaması, sinifdə tənqid və özünütənqidin olması və s. öyrənilir.

5. Kollektivdə yoldaşlıq əlaqələrinin xarakteri: məktəbliləri nə birləşdirir (yaşayış yerlərinin ümumiliyi: partada bir yerdə oturma, maraqları, ümumi iş), şagirdlər harada dostluq edirlər (məktəbdə və ya məktəbdən kənarda), onlar yoldaşlarına diqqətlidirlərmi, yoldaşlarına necə kömək göstərirlər, dostlarına qarşı tələbkardırlarmı, fiziki qüsuru olan şagirdlərə humanist münasibət bəsləyirlərmi və s.

Bundan başqa, sinif rəhbərinin öyrənmə proqramına «Sinfin fəalları ilə iş», «Sinif kollektivinin ümumməktəb kollektivi ilə əlaqəsi», «Sinif kollektivinin daha da möhkəmləndirilməsi tədbirləri» və s. bölmələri daxil edilir.

Sinif rəhbərləri şagirdləri öyrənmək üçün əsasən aşağıdakı metodlardan istifadə etməlidirlər:

1. Şəxsi işlərlə tanışlıq (uşaq haqqında: sağlamlığı, oxuması, tərbiyəsi və s.).
2. Sinif jurnalı ilə tanışlıq.
3. Sabiq sinif rəhbəri və müəllimlərlə söhbət.
4. Direktor və onun müavinlərinin məlumatı.
5. Şagirdlərlə şəxsi görüşlər (tədris ilinin əvvəlində və sonunda).
6. Valideynlərlə söhbət.
7. Pedaqoji müşahidə.
8. Şagirdlərlə söhbət.
9. Pedaqoji eksperiment.
10. Məktəblilərin fəaliyyət məhsullarının öyrənilməsi.
11. Müəllimlərlə söhbət.
12. Anketlər.
13. İnşa yazılar.

14. Ev şəraitinin öyrənilməsi.

15. Dolayı xarakteristikaların ümumiləşdirilməsi (bu zaman sinif rəhbəri şagirdlər haqqında başqa şəxslərdən aldığı məlumatları özündə olan materiallarla müqayisə edir).

16. Şagirdlərin qarşılıqlı əlaqələrinin sosiometrik üsullarla

Ədəbiyyat

1.Pedaqogikanın əsasları Bakı-2005. – Məcid İsmixanov

2. Pedaqogika “Maarif”, Bakı-1996. – N.Kazımov, Ə.Həşimov

3 Pedaqogika “Maarif”, Bakı-2006- A.Eminov, İ.İsayev

4. Pedaqogika “Renesans” Bakı -2000- A.Abbasov, H.Əlizadə

Mövzu 15. Məktəbin idarə edilməsi və onun rəhbərliyi Məktəb işinin planlaşdırılması

Plan:

1. Məktəb, ailə və ictimaiyyətin tərbiyədə rolu və birgə işi

2. Məktəb, ailə və ictimaiyyətin birgə tərbiyə işinin formaları

Cəmiyyətin ilk struktur birliyi şəxsiyyətin əsasını qoyan ailə hesab olunur. Ailə qan və qohumluq münasibətləri ilə bağlıdır. O, qadın və kişini, uşaqları və eyni zamanda iki, üç, bəzən dörd nəsli: ata-anamı, onların uşaqlarını, baba və nənəni, nəvə və nəticəni birləşdirir. Uşağın olması ailənin mükəmməlliyi üçün mühüm şərtdir. O, uşaq dünyaya gəldikdən sonra mükəmməl və möhkəm ailəyə çevrilir. Ailənin əsas funksiyası insan nəsli yetirmək, uşaq böyütmək və tərbiyə etməkdir.

Ailə pedaqogikası konsepsiyası, yəni elmin nəzəriyyəsi və əsas istiqamətləri müxtəlif tarixi dövrlərdə, habelə müxtəlif ictimai quruluşlarda zahirən dəyişməz qalmaqdadır. Onlar ümumbəşəri dəyərlər, düzlük və şərəf, ləyaqət və xeyirxahlıq, insanlara sevgi və əməksevərlik, yaxşılığa görə minnətdar olmaq qabiliyyəti və s. keyfiyyətləri formalaşdırmaq üçün yaranmışlar.

Ailə tərbiyəsinin nəticəsi olan əxlaqa verilən dəyərə Məhəmməd peyğəmbərin (s.) kəlamlarında rast gəlirik. Məsələn, «Atanın öz övladlarına əvəzsiz olaraq verdiyi, bağışladığı şeylərin ən üstünü odur ki, onu yaxşı böyütsün, gözəl tərbiyə etsin»; «Övladlarınız arasında ədalətə riayət edin, ədaləti gözləyin».

«Qurani-Kərim»də ailədə uşaq şəxsiyyətinə hörmət məsələləri də şərh olunmuşdur: «Valideynlərin övladlarına, övladların da valideynlərə qayğı göstərmələri vacibdir».

Xalq məsəllərində də ailə tərbiyəsinə dair kəlamlara rast gəlinir. «Qızını döyməyən, dizinə döyər», «Uşağım əzizdir, tərbiyəsi ondan əzizdir», «Mərd oğul ataya çəkər», «Uşaq gördüyünü götürər» və s.

Bunların başlıca mənasını şəxsiyyətin hərtərəfli və harmonik inkişafını, fiziki, mənəvi və psixoloji sağlamlığını qorumağı və möhkəmləndirməyi təmin edən tərbiyə sistemini yaratmaq təşkil edir. Yalnız belə ailə tərbiyəsi uşağı xoşbəxt edə bilər.

Bütün insan təbəqələrinə malik ailələrin hamısında ənənəvi olaraq uşağın tərbiyəsinə xüsusi qayğı göstərilir. O, xalq arasında adətən «Mən necə edirəmsə, sən də elə hərəkət et» prinsipi əsasında qurulmuşdur. Deməli, ailə tərbiyəsinin əsasını əcdadların, ulu babaların təcrübəsi, valideynlərin nüfuzu, onların işi, davranış ənənələri təşkil edir. Tərbiyədə nümunə olaraq birinci ata və ana əsas sayılır. Ailə başçısı – ata adətən oğlan üçün nümunə olmuş, qız isə ən çox anadan öyrənmişdir.

Varlı ailələrdə uşaqların tərbiyəsi ilə tərbiyəçilər məşğul olmuşdur. Onlar öz müdrikliklərі ilə uşaqda ana yurda, doğma təbiətə, ana dilinə sevgi tərbiyə etmişlər. Belə ailələrdə uşaqların tərbiyəsi və təhsili ilə xüsusi tutulmuş müəllimlər məşğul olmuşlar. Artıq XX əsrdə yaranmış ictimai-siyasi vəziyyət ailə tərbiyəsinə də təsir göstərmişdi.

Azərbaycan tarixinin Sovet dövründə uşaq tərbiyə müəssisələri: yaslilər, uşaq bağçaları, məktəblər və s. geniş miqyas almışdı. Bütün bunlara baxmayaraq ailə tərbiyəsi yenə birinci yerdə olmuşdu. Fransız filosofu və maarifçisi J.J.Russo vaxtilə göstərmişdi ki, əvvəlkinə nisbətən sonrakı tərbiyəçi uşağa daha az təsir edir. Ailə əvvəlki tərbiyəçidir. O, yasliyə, bağçaya, məktəbə nisbətən uşağa daha güclü tərbiyəvi təsir göstərir. Uşaqları tərbiyə etmək üstünlüyünü onlara təbiət özü

vermişdir. Son ədəbiyyatlarda uşağın tərbiyəsinə hələ ana bətnində olarkən başlandığı da göstərilir. Tədqiqatlar sübut etmişdir ki, ananın sevinci və ya kədəri onun bətnində olan uşağın reaksiyasına səbəb olur. Valideyn tərbiyəsi uşaq anadan olandan sonra intensiv hal alır. Köməksiz, ən adi xidmətə ehtiyacı olan uşaq valideynlərin səsini, ailədə olan emosional şəraiti hiss edir, dinləməyi, nəvazişə cavab verməyi, gözəlliyi qiymətləndirməyi öyrənir. Sonrakı illərdə də (uşaqlıq, yeniyetməlik və gənclik) ailə tərbiyəsinin zəruriyyəti və məsuliyyəti azalmır. Ona görə də ailə tərbiyəsinin, onun məzmunlu və mütəşəkkil təşkilinin təmin olunması bəşəriyyətin daimi və çox məsuliyyətli vəzifəsidir.

Pedaqogikanın ən mühüm sahələrindən biri də məktəbşünaslıqdır. Onun əhatə etdiyi məsələlər çox rəngarəngdir. Məktəbşünaslığın öyrəndiyi məsələlər sırasına aşağıdakılar daxildir: məktəbin idarə edilməsi, onun əsasları və prinsipləri, pedaqoji kollektiv, o cümlədən məktəb direktoru və onun müavinlərinin fəaliyyətinin təşkili, müəllim əməyinin nizamlanması, məktəbdə metodiki iş, məktəbdaxili nəzarət, məktəb sənədləri, tədrisi tənzimləyən dərs cədvəlinin tərtibi, məktəbin maddi-texniki bazası və s. Məktəbin rəhbərliyi bu məsələlərin həlli ilə bağlı vəzifələri yerinə yetirərkən proqram sənədlərinə, Azərbaycan Respublikasının Təhsil Qanununa, (2009) həmin qanuna uyğun aktlara və təhsil müəssisələrinin nizamnamələrinə əsaslanır.

«İdarəetmə» ümumi və universal anlayışıdır və sosial, bioloji prosesləri, müxtəlif maşın və mexanizmləri idarəetmə kimi anlanılır. O, idarəetməyə məxsus obyektiv qanunlar əsasında yeni vəziyyətə keçmək üçün sistemə təsir göstərmək prosesidir.

İdarəetmənin elmi əsasları dedikdə, idarəetmə praktikasının nəzəri bazasını təşkil edən elmi biliklər nəzərdə tutulur. Təhsil sisteminin elmi idarəedilməsi böyüməkdə olan nəsillərin tərbiyəsi naminə müxtəlif səviyyələrdəki subyektlərin ardıcıl, planlı, şüurlu və məqsədyönlü qarşılıqlı təsiri ilə müəyyən olunur (nazirlikdən tutmuş məktəbə və məktəbdənkənar müəssisələrədək).

İdarəetmənin elmi əsasları iki hissədən - idarəetmə nəzəriyyəsindən və idarəetmənin elementləri, funksiyaları və aspektləri haqqında konkret idarəetmə elmlərindən ibarətdir. İdarəetmə nəzəriyyəsinin predmetini, idarəçiliyin qanunları təşkil edir.

İdarəetməyə tarazlı və dinamik proses kimi baxmaq olar. Bu proses idarəetmə orqanlarının və işçilərinin fəaliyyət göstərməsi ilə bağlıdır. Onu məzmuna, təşkilə,

texnologiyaya görə səciyyələndirmək olar. İdarəetmənin məzmunu, mahiyyəti, məqsədləri, prinsipləri, metodları, funksiyaları və səciyyəvi cəhətləri onun orqanlarının ümumi səviyyəsi ilə müəyyən olunur.

Optimallaşma – vaxt, qüvvə, vəsaitin sərf edilməsi nəticəsində yüksək nəticələr əldə etməkdir. İdarəetmə o zaman optimal hesab edilə bilər ki, qarşıya qoyulmuş məqsədə müəyyən edilmiş vaxtda yüksək keyfiyyətə nail olunsun. Bunun üçün aşağıdakı şərtlərə əməl olunmalıdır:

1.Kadrların təyinində müəyyən qaydalar gözlənilməlidir. Məktəbdə vəzifəli, işgüzar, stabil müəllim kollektivi olmalıdır. Bununla bərabər, müəllimlər normativ – hüquqi sənədlərə uyğun olaraq ixtisasartırma kursunda iştirak etməklə attestasiyadan keçirilməlidir;

2.Məktəbin maddi texniki bazası möhkəmləndirilməli normativ tədris binası, müasir təlim avadanlığı, İKT, tədris ləvazimatları olmalıdır;

3.İdarəetmə demokratik üsullarla aparılmalıdır. Yerli idarəetmə orqanlarının, valideynlərin, ictimaiyyətin iştirakına, şagird özfəaliyyətinin inkişafına malik olunmalı, məktəbdə kollektivin hər bir üzvünə hörmətlə yanaşılmalıdır

4.İdarəetmədə stimullaşdırma özünü göstərməlidir. Belə ki, pedaqoji kollektivin üzvləri müvafiq qaydada maddi – mənəvi cəhətdən mükafatlandırılmalı, kollektiv arasında sayılan mühit yaradılmalıdır.

Vəzifə bölgüsü. Məktəbdə təşkilatı iş vəzifə və tapşırıqlar bölgüsü ilə başlayır. Məktəbdə vəzifə bölgüsü dörd istiqamətdə gedir: 1) müdiriyyət üzvləri arasında; 2) müəllimlər arasında; 3) şagird təşkilatları və şagird fəalları səviyyəsində; 4) texniki və başqa işçilər arasında.

Məktəb direktorunun şəxsi əməyinin təşkili. Məktəb direktoru məktəbdə əsas simadır. Onun şəxsi əməyinin təşkili ümumi məktəbin işinin səmərəliliyinə təsir göstərir. O, yaxşı bilməlidir ki, çox yorulduqda rəhbər düzgün qərar vermək qabiliyyətində olmur. Buna görə də şəxsi əməyini düzgün qurmalıdır. Müəllim əməyinin nizamlanması. Araşdırmalar göstərir ki, bir sıra kollektivlərdə müəllimin iş vaxtı həftədə 55-65 saata çatır. Səmərəliliyinə görə onun gərgin vaxtı dərsdə olur. Bundan başqa, əvvəlcədən dərsə hazırlaşmalı və digər pedaqoji işlərlə məşğul olmalıdır. Müəllimin əməyini nizama salmaq onun şəxsi işi deyil, o, ciddi pedaqoji problemdir. Rəhbərlik müəllimdən mütəşəkkillik, nizam-intizamlılıq, əqli əmək

mədəniyyətinin lazımı səviyyədə olmasını tələb etməklə yanaşı, onun üçün zəruri şərait də yaratmalıdır.

Pedaqoji Şuranın işinin məzmunu və metodu. Məktəbdə metodiki iş sahələrindən biri Pedaqoji Şuranın fəaliyyətini qaydaya salmaqdır.

Pedaqoji Şura üç nəfərdən artıq müəllimi olan bütün məktəblərdə təşkil olunur. O, təlim-tərbiyə prosesinin əsas məsələlərinə baxan, daimi fəaliyyət göstərən orqandır. Pedaqoji Şuranın tərkibinə məktəbin direktoru (sədr), onun müavinləri, müəllimlər, tərbiyəçilər, kitabxanaçı, həkim, valideynlər komitəsi şurasının sədrləri daxil edilir.

Şura öz işini iki istiqamətdə qurur: birinci, istehsalat-işgüzar istiqamət. Buraya məktəbin illik iş planının təsdiqi, rüblər üzrə məktəbin fəaliyyətinin yekunlarına baxılması, imtahanlara hazırlıq və onun keçirilməsi planının təsdiqi, şagirdlərin buraxılış və sonrakı sinfə keçirilməsi, dərs ilinin yekunları və yayda şagirdlərlə iş planı məsələləri daxildir. İkinci, elmi-pedaqoji istiqamət. Buraya isə yuxarı orqanların göstərişləri və tətbiq məqsədilə elmi tədqiqatların, qabaqcıl təcrübənin müzakirəsi, məktəbdə pedaqoji prosesin təhlili məsələləri daxildir.

Ədəbiyyat

1. Pedaqogikanın əsasları Bakı-2005. – Məcid İsmixanov

2. Pedaqogika “Maarif”, Bakı-1996. – N.Kazımov, Ə.Həşimov

3 Pedaqogika “Maarif”, Bakı-2006- A.Eminov, İ.İsayev

4. Pedaqogika “Renesans” Bakı -2000- A.Abbasov, H.Əlizadə